06_27 IYUl-QARA.qxd 2/12/2026 10:38 PM Page 1

UNİKAL

№06 (2285) 13 fevral 2026-cı il

Qiyməti 50 qəpik

Qurucusu: Asəf Rzayev www.unikal.az



# "Dövlətə xəyanət işi"nin şok detalları: DTX rəsmi məlumat yaydı



Səh.3

# Bəzi iri məmurlara 2026 şoku

*Hər il struktur islahatlarının aparılması, yeni şəxslərin vəzifəyə təyin edilməsi diqqət mərkəzində olub. Cari ilin əvvəlindən isə sözügedən prosesin bir az da sürətləndiyi hiss olunur. Bunu "Unikal"ın apardığı araşdırması da təsdiqləyir. Belə ki, 2026-cı ilin əvvəlindən indiyədək çox sayda vəzifəli şəxs işdən çıxarılıb və onların yerinə yeni təyinatlar olub. Görünən odur ki, Azərbaycanda məmur korpusunun təmizlənməsi və sağlamlaşdırılması prosesi qarşıdakı dövrdə daha da güclənəcək. Bu isə bir çox iri məmurun illərdən bəri tutduqları postlardan kənarlaşdırılması ilə nəticələnəcək. Həmin məmurlar barədə bir qədər sonra ətraflı danışacağıq. Lakin gəlin öncə 2026-cı ilin əvvəlindən bu yana vəzifədən çıxarılan, yaxud vəzifəyə təyin olunan şəxslərin siyahısı ilə tanış olaq: Beləliklə...*

Səh.8

## "Prezident bunu şəxsən gündəmə gətirib və konkret tapşırıqlar verib"



*Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü, deputat Tahir Mirkişili "Unikal"a müsahibə verib. O, Prezident İlham Əliyevin sədrliyi ilə keçirilən "Azərbaycanın yeni rəqəmsal arxitekturası" adlı vahid fəaliyyət planına həsr olunmuş müşavirənin əhəmiyyətindən, nazirliklərdə...*

Səh.4

## Monopolistlərin "pensiya cibgirliyi"



*Əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Rəşad Mustafayev media nümayəndələri üçün keçirilən brifinqdə bildirib ki, yeni artımla orta aylıq pensiya və yaşa görə orta aylıq pensiya müvafiq olaraq 593 manata və 632 manata çatıb. Nazir müavininin sözlərinə görə, 2018-2025-ci illərdə orta aylıq pensiya...*

Səh.6

## Gültəkin Hacıbəyli Azərbaycana deportasiya edildi



*Sabiq deputat Gültəkin Hacıbəyli Türkiyədən Azərbaycana deportasiya edilib. "Unikal" xəbər verir ki, bu barədə AXCP sədrinin müavini Fuad Qəhrəmanlı məlumat yayıb. F.Qəhrəmanlı ölkəyə qayıdan Hacıbəylinin hazırda azadlıqda olduğunu bildirib. Qeyd edək ki, G.Hacıbəyli 2 ay əvvəl Türkiyədə saxlanılmışdı.*

Səh.5

06_27 IYUl-QARA.qxd 2/12/2026 10:38 PM Page 2



# "Moskvada erməni mahnısı oxumusan, toyda bığını qırxıblar" - Namiqlə Tacirin qalmaqalı böyüyür



***Aşıq Namiq Fərhatoğlu müğənni Tacir Şahmalıoğlu arasındakı qalmaqa daha da "alovlanıb".***

O, müğənni haqqında səsləndirdiyi fikirlərlə diqqət çəkib. Namiq Tacirin efirdə onun ünvanına dediyi sözlərə cavab verib və kəskin açıqlamalar edib.

Namiq bildirib ki, Tacir Şahmalıoğlu Vüsalə Əlizadənin verilişinə qatılaraq həm özü, həm də oğlunun "başından böyük danışdığını" iddia edib: "Bundan əvvəl dediyi sözlərə cavabını vermişdim. Sonra məni yığdı ki, şəkərim var və s. Dedim sən məndən yaşca böyüksən, 61 yaşın var, mənim 42 yaşım. Soruşdum axıra qədər gedək? Dedi yox. Razılaşdıq ki, mənim adımı efirlərdə çəkmə, mən də danışmayım".

Aşıq Namiq daha sonra Tacirin sənət fəaliyyətini də tənqid edib: "Nə qədər sənətkar xanəndələrimiz var ki, dövlət tədbirlərində, beynəlxalq səviyyəli mərasimlərdə iştirak edirlər. Sən hansında olmusan? Moskvaya gedib kafedə oxumusan. Vaxtilə erməni mahnısı da oxumusan. Toyda bığını qırxıblar".

O, həmçinin repertuar məsələsinə də toxunub: "Efirdə deyirsən Namiq saz çalıb, bakılı mahnısı oxuyub. O mahnı Eyyub Yaqubovun repertuarındandır. Sən onun səviyyəsinə çata bilməzsən. O, ən elit toylara dəvət alır".

Aşıq Namiq qarşı tərəfi xəbərdar edərək daha sərt fikirlər səsləndirib: "Səni neçə dəfə nə üstündə tutublar, çox şey bilirəm. Bir söz desən, on beşini deyərəm. Yanında başım aşağı deyil. Bu gün-sabah nəvələrin olacaq, ağıllı ol. Aşıqlıq sənəti üçün bir milyondan çox pul xərcləmişəm - layihələrə, efirlərə. Sən nə etmisən? Gedib kafelərdə bayağı mahnılar oxumusan. Bir "Bayatı-Şiraz" oxumusan, müəllimin üzünə ağ olmusan".

Sənətçi əlavə edib ki, Xalq artisti Zeynəb Xanlarova onun haqqında xoş sözlər deyib və bildirib: "Zeynəb Xanlarova mənim barəmdə söz deyib. Amma sənin kimi yüz Tacir olsa, heç nə deməz. Xəbərdarlıq edirəm, özünü yığışdırmasan, haqqında bildiklərimi açıqlayacağam".

# "Oğlum müğənni qız alsa, özümü öldürərəm" - Kəmalə Nəsibova

***Xanəndə Kəmalə Nəsibova "Oz aramızda" verilişində səsləndirdiyi fikirlərlə gündəmə gəlib.***



Milli.Az-ın məlumatına görə, sənətçi açıqlamasında bildirib ki, həyatında müğənni qızı oğluna gəlin etmək istəməz: "İstərdim ki, gəlinim evdə otursun, yemək bişirsin, uşaqlara baxsın, onların tərbiyəsi ilə məşğul olsun. Gecə saat 3-də toydan gəlməsini istəmərəm. Elə toylar var... Lap Xalq artisti olsun, toya getməsə də, səfərə, konsertə gedir, evdə tapılmır".

Nəsibova əlavə edib ki, oğlu onun tərbiyəsi ilə böyüyüb və bu məsələdə anasının sözündən çıxmaz: "Bilir ki, müğənni xanım istəsə, özümü öldürərəm. Bu sahədən heç kimlə ailə qurmasını istəmərəm. Kişinin arvadı namuslu-qeyrəti, evində olar, ailəsi ilə məşğul olar".

Xanəndə öz sənət fəaliyyətinə də toxunaraq bildirib ki, məclislərdə başına gələn hadisələri nümunə göstərib: "Mən məclisə gedib oxuyuram, biri deyir 'ay ceyran' deyib şabaşları başıma tökür. Bu, nə deməkdir? Mən belə kişi olmazdım. Mənim bəxtim gətirmədi, 40-a çatmışam, ər çörəyi yeyə bilmədim".

Onun bu fikirləri sosial şəbəkələrdə geniş müzakirələrə səbəb olub və birmənalı qarşılanmayıb.



## Röyanın sözləri diqqət çəkdi: "Eltimin hədiyyəsidir, ailə biznesimizdir"

***Xalq artisti Röya Ayxan açıqlaması ilə diqqət çəkib.***

Müğənni xeyli çəki aldığını bildirirb və pəhriz yeməklərini paylaşıb. Diqqət çəkən məqam isə onun "Eltimin göndərdiyi yeməklər. Ailə biznesimizdir. Qaynımın yoldaşı mənə gözəl yeməklər göndərib" sözləri olub.

Röya arıqlamaq istəmədiyini əlavə edib: "Çox çəki almışam. Sonra başlayıram arıqlamağa. Amma arıqlamaq istəmirəm".

## "Elza, cahilliyimizi bağışla" - Brilliant Dadaşova üzr istədi

***Xalq artisti Brilliant Dadaşova Əməkdar artist Elza Seyidcahanla bağlı paylaşım edib.***



Videoda onların məclislərdən birində qarşılaşdığı əks olunub.

B.Dadaşova həmin videoya "Elza, bizi bağışla. Biz sənə böyüklüyün qədər dəyər verə bilmirik. Cahilliyimizi bağışla" sözlərini yazaraq, üzr istəyib.

## "Aygün Kazımovanın ad günündən özünə piar qazananlar oldu"



***"Sənətdən gələn pul daha bərəkətli olur. Ailə biznesimiz var, onun üzərindən həyatımıza davam edirik. Bu yaxınlarda eşitdim ki, Bülent Ərsoyun 8 milyon dollar pulu, evləri var. Bəlkə də daha çoxdur. Bir az təəssüf hissi keçirdim. Söhbət Bülent Ərsoydan getmir. Onların sənətçilərinin əlində olan pul bizim ifaçılarımızınkından qat-qat çoxdur".***

Bu sözləri müğənni Elvin Abdullayev "Full şou"da deyib. O, son illər sənətin ucuzlaşmasından gileylənib.

Elvin Xalq artisti Aygün Kazımovanın ad günündə özünə xeyli piar qazanan ifaçıların olduğunu da bildirib: "Aygün Kazımova özünə ad günü keçirdi və bu məclisdən özünə o qədər piar qazanan ifaçılar var ki... Mən əvvəllər Aygün Kazımova ilə çalışmışam. Hər il onun ad gününə gedirdim. Düşünmürdüm ki, bir piar qazanım. Elə bilirdim ki, qohumumun ad gününə gedirəm. Amma ora gedənlər düşünür ki, özlərinə bir piar qazansınlar".

06_27 IYUl-QARA.qxd 2/12/2026 10:38 PM Page 3





## "İndiyədək bu qədər açıq mövqe ortaya qoyulmamışdı" - Osman Gündüz

***"Ötən gün keçirilən müşavirədə Prezident İlham Əliyevin dövlət xidmətlərinin vahid mərkəzdən - "mygov" üzərindən təqdim olunması ilə bağlı mövqeyi vətəndaş baxımından ideal modeldir".***

"Unikal" xəbər verir ki, bunu İKT üzrə ekspert Osman Gündüz sosial şəbəkə hesabında yazıb. Onun sözlərinə görə, vətəndaş üçün ən doğru yanaşma odur ki, bütün dövlət xidmətləri bir platformadan əlçatan olsun, əlavə tətbiq axtarmağa, müxtəlif sistemlərə uyğunlaşmağa ehtiyac qalmasın:

"Prezidentin göstərişinin mənası odur ki, dövlət qurumları yalnız xidmət istehsalçısı olaraq qalmalıdır, xidməti təqdim edən paralel platformalar və tətbiqlər ləğv edilməlidir. "mygov" vahid vitrin rolunu oynamalıdır, xidmətin özü isə arxada - müvafiq qurumlarda formalaşmalı və inkişaf etdirilməlidir. Bu yanaşma beynəlxalq təcrübəyə tam uyğundur və uzun illərdir rəqəmsal dövlət modelində əsas prinsip kimi qəbul olunur. Bizim tərəfimizdən də bu istiqamətdə illərdir təkliflər səslləndirilib. Xüsusilə e-gov səlahiyyətləri müxtəlif dövrlərdə əl dəyişdikcə, vahid giriş və mərkəzləşmiş vitrin modelinin vacibliyi dəfələrlə bizim tərəfimizdən də qeyd olunub. Lakin indiyədək bu mövzuda bu qədər açıq və prinsipial mövqe ortaya qoyulmamışdı".

Ekspert qeyd edib ki, Prezidentin çıxışında ayrıca vurğulanan mühüm məqam bu tətbiqləri hazırlayan komandaların əməyinin qiymətləndirilməsidir: "Bu platformalar öz dövrü üçün zəruri və faydalı olub, inteqrasiyaların olmadığı mərhələdə minlərlə, hətta milyonlarla vətəndaşa dayanıqlı xidmət göstərib. Onların arxasında isə peşəkar və təcrübəli komandalar dayanıb. Bu baxımdan həmin platformalar dövlətin rəqəmsallaşma yolunda mühüm mərhələ rolunu oynayıb və görünür, Prezident də məhz bu reallığı nəzərə alaraq onların rolunu yüksək qiymətləndirib. Amma burada bir incə məqam var. Xidməti istehsal edən "mygov" deyil. "mygov" sadəcə vitrindir. Xidmət arxada, hər bir dövlət qurumunda istehsal olunur. İndiyədək bu xidmətlər həm "mygov" üzərindən, həm də qurumların öz resurslarında təqdim olunurdu və bu, həmin komandalar üçün əməyinin nəticəsini görmək baxımından əlavə motivasiya yaradırdı. İndi sual yaranır: Bu platformalar ləğv edilərsə, həmin xidmətləri yaradan, təqdim edən və inkişaf etdirən yüzlərlə əməkdaşın motivasiyası zəifləyə bilərmi? Dövlət qurumlarında innovasiyaya meyl azala bilərmi? Təşəbbüskarlıq tədricən texniki icra səviyyəsinə enə bilərmi? Bunlar kifayət qədər ciddi və cavab tələb edən suallardır və aidiyyəti qurumlar bu risklərin fərqində olmalıdır.

Bu səbəbdən keçid kəskin deyil, tədrici aparılmalıdır. İstifadəçi axını mərhələli şəkildə "mygov"-a yönləndirilməli, paralel işləmə dövrü saxlanmalı, komandaların dövlət qurumlarında və yeni mərhələdə rolu və məsuliyyəti əvvəlcədən aydın şəkildə müəyyənləşdirilməlidir. Çünki rəqəmsal hökumət yalnız vahid platforma ilə deyil, insan kapitalını qoruyan və inkişaf etdirən düzgün idarəetmə modeli ilə dayanıqlı olur".

# Bəzi iri məmurlara 2026 şoku

## Yeni il bir çox icra başçıları daxil olmaqla, köhnə məmur korpusu üçün ağır keçəcək - Kimlərin kreslolarını itirəcəyi məlum oldu

***Hər il struktur islahatlarının aparılması, yeni şəxslərin vəzifəyə təyin edilməsi diqqət mərkəzində olub. Cari ilin əvvəlindən isə sözügedən prosesin bir az da sürətləndiyi hiss olunur. Bunu "Unikal"ın apardığı araşdırması da təsdiqləyir.***

Belə ki, 2026-cı ilin əvvəlindən indiyədək çox sayda vəzifəli şəxs işdən çıxarılıb və onların yerinə yeni təyinatlar olub.

Görünən odur ki, Azərbaycanda məmur korpusunun təmizlənməsi və sağlamlaşdırılması prosesi qarşıdakı dövrdə daha da güclənəcək. Bu isə bir çox iri məmurun illərdən bəri tutduqları postlardan kənarlaşdırılması ilə nəticələnəcək. Həmin məmurlar barədə bir qədər sonra ətraflı danışacağıq.



Lakin gəlin öncə 2026-cı ilin əvvəlindən bu yana vəzifədən çıxarılan, yaxud vəzifəyə təyin olunan şəxslərin siyahısı ilə tanış olaq:

Beləliklə...

### ...kimlər getdi, kimlər gəldi?

Yanvarın 8-də Natiq Həsənov maliyyə nazirinin müavini təyin olunub. O bundan əvvəl Maliyyə Nazirliyi Aparatının rəhbəri vəzifəsində işləyib.

Yanvarın 14-də Azər Bayramov Azərbaycan Respublikasının iqtisadiyyat nazirinin müavini təyin edilib. O, 2004-cü ildən 2026-cı il 14 yanvar tarixinədək Azərbaycan Respublikası maliyyə nazirinin müavini, eyni zamanda Büdcə Gəlirlərinin Proqnozlaşdırılması üzrə Komissiyanın sədri vəzifələrində işləyib. A.Bayramov xarici işlər naziri Ceyhun Bayramovun qardaşıdır.

Yanvarın 16-da Rauf Vəliyev "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti İdarə Heyətinin sədri vəzifəsindən azad edilib. Elə həmin gün Əfqan Cəlilov "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin İdarə Heyətinin sədri təyin olunub. Ə.Cəlilov bundan əvvəl Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində olan Dövlət Dəniz və Liman Agentliyinin İdarə Heyətinin sədr müavini idi.

Yanvarın 26-da Zaur Əliyev kənd təsərrüfatı nazirinin müavini vəzifəsinə təyin edilib. O bundan əvvəl nazirin müşaviri vəzifəsində çalışırdı.

Eyni tarixdə Seymur Səfərli kənd təsərrüfatı nazirinin müavini vəzifəsinə təyin olunub. S.Səfərli bu təyinatadək Nazirliyin "Bitkiçiliyin təşkili və monitorinqi" şöbəsinin müdiri vəzifəsində işləyib.

Yanvarın 27-də Sarvan Cəfərov kənd təsərrüfatı nazirinin müavini vəzifəsindən azad edilib. Cəfərov 2020-ci ildən nazir müavini idi.

Yanvarın 30-da Süleyman Mikayılov Bakı şəhəri Qaradağ Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilib. S.Mikayılov həmin vəzifəyə 2010-cu il martın 4-də təyin olunmuşdu. Hələlik onun yerinə təyinat yoxdur.

### Köhnə məmur korpusunun son nümayəndələri səksəkədə!

Ekspertlərin fikrincə, 2026-cı ilin əvvəlindən daha da intensivləşən kadr islahatları bu prosesin ilboyu daha da sürətli şəkildə davam edəcəyini söyləməyə əsas verir. Xüsusilə də köhnə məmur korpusunun son nümayəndələri ilə də yolların ayrılacağı, onların kreslolarını itirəcəyi yönündə ehtimallar yüksəkdir.

"Azərbaycanda məmur korpusu xüsusilə son 6-7 ildə əhəmiyyətli şəkildə yenilənib, bir yandan gəncləşdirilib, o biri yandan sağlamlaşdırılıb. Düzdür, yeni nəsil məmurlar arasında da etimadı doğrultmayanlar, buna görə də müəyyən vaxt sonra postunu itirənlər, hətta daha sərt şəkildə cəzalandırılanlar var. Lakin ümumilikdə idarəetmə sisteminin xüsusən də sovet təfəkkürlü məmurlardan təmizlənməsi istiqamətində addımlar cəmiyyət tərəfindən təqdirlə qarşılanır. Bununla belə, köhnə məmur korpusuna mənsub vəzifəlilərdən bəziləri hələ də iş başındadır. Böyük ehtimalla, 2026-cı il onlar üçün əyləşdikləri kresloda son il olacaq, tutduqları postdanca təqaüdə göndəriləcəklər. Hətta bəzilərinin rüşvət, korrupsiya kimi əməllərə görə hüquqi məsuliyyətə cəlb edilməsi istisna deyil" - deyə bəzi analitiklər proqnozlaşdırırlar.

### Prezidentin sözləri əslində bir xəbərdarlıqdır!

Digər tərəfdən, son vaxtlar Azərbaycanda icra hakimiyyətlərinin və digər bir neçə qurumun ləğvi haqda müzakirələrin yenidən güclənməsi, dərinləşməsi də diqqətdən yayınmamalıdır. Əsas müzakirə isə rayon-şəhər icra hakimiyyətlərinin daha çevik mexanizmlə əvəzlənməsi istiqamətindədir. Bildirilir ki, bu, köhnəlmiş sistem olduğu üçün rüşvət və korrupsiyaya asan imkanlar yaradır, həm də idarəetmədə ləngimələrə, bürokratiyaya gətirib çıxarır.

Prezident İlham Əliyev yanvarın 5-də yerli televiziya kanallarına müsahibəsində bu mövzuya da toxunub. Ölkə başçısı deyib ki, Qarabağda və Şərqi Zəngəzurda tətbiq olunan idarəetmə modeli bir gün ölkənin müxtəlif yerlərinə, bəlkə də bütövlükdə ölkəyə tətbiq oluna bilər. Çünki bu da operativ, çevik və daha az məmurun iştirakını tələb edən üsuli-idarə metodudur.

Bir müddət əvvəl "Globalinfo" yazıb ki, Prezidentin bu sözləri yaxın vaxtlarda ölkədə ciddi dəyişikliklərin baş verəcəyini söyləmək üçün əsas yaradır. Əsasən də icra hakimiyyəti strukturunda köklü islahatlara şahidlik edəcəyik.

Prezident İlham Əliyev həmçinin bildirmişdi ki, daha az məmurla çevik idarəetmə sistemi yaradılmalıdır. Bu da o deməkdir ki, həm xeyli ixtisarlar aparılacaq, həm də yüksək vəzifələr tutan çoxsaylı məmur ordusu idarəetmədən uzaqlaşdırılacaq.

Bir sözlə, ölkə başçısının məlum çıxışı da Azərbaycanda 2026-cı ilin intensiv şəkildə, ardıcıl və düşünülmüş kadr, eləcə də struktur islahatları ilə müşayiət olunacağının xəbərdarlığıdır. Bu islahatlar isə həm köhnə məmur korpusunun hələ də vəzifədə qalan son nümayəndələri, həm də yaşca yeni nəsil məmurlar olmasına baxmayaraq başqa köhnə məmurları xatırladan, fəaliyyətində ənənəvi, nimdaş bürokratçılığa yol verən vəzifəlilər üçün yolun tamamilə sonu olacaq.

***Toğrul Əliyev***

# ABŞ-Azərbaycan strateji tərəfdaşlığının yeni mərhələsi

***"ABŞ vitse-prezidenti Cey. Di. Vensin Cənubi Qafqaz regionunda iki dövlətə - Ermənistana və Azərbaycana- səfəri Ağ Evin strategiya alqoritmində dəyişikliyə işarə verir. Vaşinqton bölgə ilə bağlı siyasətini Azərbaycan-Ermənistan sülh gündəmi mövqeyindən irəliyə aparır. Gürcüstan amilində isə ABŞ öz prioritetlərini Azərbaycan-Türkiyə strateji müttəfiqliyinə təhvil verir".***

Bu barədə fikirlərini siyasi təhlilçi Aqşin Kərimov "Unikal"la bölüşərkən deyib. ABŞ-nin bu məqsədləri tanış olsa da, onun vasitələrinin dəyişdiyi görünür. Onun qənaətincə, bu, Azərbaycan-ABŞ münasibətlərində və Türkiyənin prosesdə tutduğu mövqedə düşünülmüş tənzimləmədir və özünəinamlı bir tonu ifadə edir: "Gürcüstanın təhlükəsizlik təminatında Azərbaycan-Türkiyə müttəfiqliyinin hansı strategiya işləyəcəyi və ya mövcud nizamlamanı necə yeniləcəyi zamanın və geosiyasi konfiqurasiyanın xarakterindən asılı olaraq dəyişə bilər.

Digər tərəfdən, Azərbaycan Prezidenti İlham Əliyev ABŞ ilə strateji tərəfdaşlığı yeni dünya düzənində müttəfiqlik əlaqələrinin şaxələndirilməsi prizmasından həyata keçirir. Burada cənab İlham Əliyev Azərbaycanın Şərqdəki və Qərbdəki müttəfiqləri (Çin və ABŞ) arasında strateji təmkin və realizm əsaslı koordinasiya yaradır. Zəngəzur dəhlizinin (TRIPP) Orta Dəhlizdəki yeri və bunun Azərbaycan-ABŞ Strateji Tərəfdaşlıq Xartiyasında təyin edilən məqamı ABŞ və Çinin Cənubi Qafqazdakı əməkdaşlıq modelini təşviq edən mühüm addımdır".

A.Kərimov onu da vurğulayıb ki, Azərbaycanla ABŞ arasında imzalanan Strateji Tərəfdaşlıq haqqında Xartiya iki dövlətin böyük ölçüdə geosiyasi vizyonunu əhatə edir: "Bu, mövcud beynəlxalq münasibətlər sistemindəki turbulentlik dövründə yazılmış və əməkdaşlıq yükünü dərinləşdirən sənəddir. Bu sənəd regionda başqa güc mərkəzlərinin hakim olması iddiasının qarşısında etibarlı bir dəyərə malik ola bilər. Azərbaycan regional tarazlığı qorumaq və ya onu gücləndirmək yükündə məsuliyyətli tərəflərin sayını çoxaldır.

ABŞ Cənubi Qafqazda enerji sahəsindəki strategiyasını nüvə enerjisinə keçid etməklə (həm Azərbaycan, həm də Ermənistanda) möhkəmləndirir. Bu, ABŞ-nin 2025-ci ilin noyabrında qəbul edilmiş Milli Təhlükəsizlik Strategiyasındakı "Enerji dominantlığı" yarımbaşlığı ilə təqdim edilmiş prioritetlərinin Qafqaza uyğunlaşdırılmasıdır. ABŞ bununla Azərbaycanla enerji sahəsindəki əməkdaşlığı yenidən qurmağı vacib strateji yanaşma hesab edir. Bu, Azərbaycanın enerji strategiyasının perspektivi prizmasından Bakının geosiyasi ştrixlərinin səviyyəsinin qalxacağını proqnozlaşdıran hadisədir.

Antiterror əməliyyatları sferasında əməkdaşlıq ABŞ-Azərbaycan strategiyasındakı iqtisadi, siyasi əməkdaşlığı təhlükəsizlik gücü ilə əlaqələndirən qatlara malikdir. Bu, dolayı işarələrlə Azərbaycan-ABŞ əməkdaşlığına qarşı təhlükəsizlik maneələri çıxarmaq istəyən istənilən sahəyə nüfuz edir. Azərbaycanla ABŞ-nin terrorizmə qarşı mümkün gələcək əməliyyatlarının dairəsi təkcə quru sərhədləri ilə deyil, Xəzər dənizinin hüdudlarını da əhatə edə bilər".



**Kamaləddin Qafarov: "Bu, son aylarda regionda formalaşan yeni siyasi reallıqların mahiyyətini aydın şəkildə ortaya qoyur"**



**Aqşin Kərimov: "ABŞ Azərbaycanla enerji sahəsindəki əməkdaşlığı yenidən qurmağı vacib strateji yanaşma hesab edir"**

Milli Məclisin deputatı Kamaləddin Qafarov isə "Unikal"a açıqlamasında deyib ki, 2025-ci ilin avqust ayında Vaşinqtonda keçirilmiş yüksək səviyyəli görüş və Strateji Tərəfdaşlıq haqqında Xartiyanın hazırlanması məqsədilə birgə işçi qrupunun yaradılması Azərbaycan-ABŞ münasibətlərində keyfiyyətcə yeni mərhələnin əsasını qoydu. Onun fikrincə, bu proses göstərdi ki, tərəflər münasibətləri situativ maraqlar deyil, uzunmüddətli strateji hədəflər üzərində qurmağa üstünlük verirlər. "2026-cı il fevralın 10-da ABŞ-nin vitse-prezidenti Vensin Bakıya rəsmi səfəri isə həmin strateji kursun davamlılığının və siyasi iradənin real təsdiqidir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ABŞ-nin vitse-prezidenti Cey. Di. Vensla birgə mətbuata bəyanatı son aylarda regionda formalaşan yeni siyasi reallıqların mahiyyətini aydın şəkildə ortaya qoyur. Bu bəyanat təkcə ikitərəfli münasibətlərin inkişafını deyil, həm də Cənubi Qafqazda sülh, əməkdaşlıq və qlobal inteqrasiya perspektivlərini əks etdirən strateji baxışı nümayiş etdirir".

K.Qafarov bildirib ki, cənab Prezident İlham Əliyevin sülh mövzusunda təqdim etdiyi açıqlamalar xüsusilə diqqətçəkicidir: "Ermənistan və Azərbaycan arasında sülh sazişinin paraflanması və Sülh haqqında Birgə Bəyannamənin imzalanması region üçün dönüş nöqtəsi hesab edilə bilər. Artıq altı aydır davam edən sabitlik mərhələsi postmünaqişə dövrünün yalnız hüquqi sənədlərlə deyil, praktik davranış və siyasi mədəniyyətlə möhkəmləndirildiyini göstərir. Azərbaycanın sülh şəraitində yaşamağı və əməkdaşlıq mühitini formalaşdırmağı öyrənməsi regional münasibətlərdə yeni modelin əsasını yaradır. Tramp-Vens administrasiyasının təşəbbüsü ilə irəli sürülən TRIPP layihəsi isə bu sülh mühitinin iqtisadi və geosiyasi ölçüsünü tamamlayır. Bu marşrut Azərbaycanın daxili bağlantısını gücləndirməklə yanaşı, Cənubi Qafqazı Asiya ilə Avropa arasında mühüm nəqliyyat və logistika qovşağına çevirir. Layihənin təhlükəsiz, etibarlı və genişmiqyaslı xarakter daşıması regionun beynəlxalq ticarət sisteminə inteqrasiyasını sürətləndirir və sülhün iqtisadi dayaqlarını möhkəmləndirir. Əlbəttə ki, enerji təhlükəsizliyi sahəsində Azərbaycanın artan rolu da Strateji Tərəfdaşlıq Xartiyasının mühüm sütunlarından biridir. Bu gün Azərbaycanın təbii qazla təmin etdiyi ölkələrin əksəriyyətinin NATO üzvü və ABŞ-nin müttəfiqi olması Bakının Avroatlantik təhlükəsizlik məkanında etibarlı tərəfdaş statusunu təsdiqləyir. Enerji sahəsində formalaşmış qarşılıqlı asılılıq siyasi dialoqun dərinləşməsinə və uzunmüddətli strateji əməkdaşlığa əlavə zəmin yaradır. Beləliklə, cənab Prezident İlham Əliyevin bəyanatı Azərbaycan-ABŞ münasibətlərinin yalnız ikitərəfli deyil, regional və qlobal miqyasda əhəmiyyət daşıdığını göstərir. Sülh, nəqliyyat, enerji və təhlükəsizlik kimi əsas istiqamətləri əhatə edən bu tərəfdaşlıq Azərbaycanın dəyişən beynəlxalq sistemdə artan strateji rolunu aydın şəkildə ortaya qoyur".

***H.İsgəndərov***



# Leyla Əliyeva dairəvi xalçanın kəsim mərasimində iştirak edib

***Heydər Əliyev Fondu, "PASHA Holding" və "PMD Projects"in təşkilatçılığı ilə "Azərxalça" ASC-nin yaradıcı heyəti və toxucu ustalarının birgə zəhməti nəticəsində ümumdünya xalçaçılıq tarixində analoqu olmayan, diametri 22,17 metr olan dairəvi əl xalçasının toxunma prosesi artıq tamamlanıb.***

Bu barədə "Unikal"a "Azərxalça" ASC-dən məlumat verilib.

ildirilib ki, Şuşa məscidi üçün iki ayrı dairəvi xalça hazırlanıb: məscidin birinci mərtəbəsi üçün nəzərdə tutulan xalça İsmayıllı emalatxanasında toxunaraq başa çatdırılıb, ikinci mərtəbə üçün hazırlanan xalça isə "Azərxalça" ASC-nin Şabran emalatxanasında toxunub. Şuşa məscidi üçün hazırlanmış dairəvi xalçanın kəsim prosesində Leyla Əliyeva iştirak edib. Daha əvvəl Leyla Əliyeva İsmayıllı emalatxanasına baş çəkərək xalça ilə yaxından tanış olub, toxucularla vaxt keçirib və bu tarixi əsərin bir hissəsinə çevrilərək xalçaya ilmə atıb. Kəsim mərhələsində isə xalçanın son ilmələri məhz Leyla Əliyeva tərəfindən vurulub.

# Azərbaycan-Sloveniya parlamentlərarası əlaqələri müzakirə olundu

***Sloveniyanın xarici işlər və Avropa işləri naziri Tanya Fayon Azərbaycan-Sloveniya parlamentlərarası dostluq qrupunun sədri, deputat Heydər Əsədovla görüşüb.***

"Unikal" xəbər verir ki, bu barədə Azərbaycanın Avstriya və Sloveniyadakı səfiri Rövşən Sadıqbəyli "X" sosial şəbəkə hesabında yazıb. Səfir qeyd edib ki, H.Əsədov, həmçinin Sloveniya parlamentin sədri Urşka Klakoçar-Zupançiç, Sloveniya-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Boyan Çebela ilə görüşüb.

İkitərəfli siyasi və iqtisadi əlaqələr, regional məsələlər, Azərbaycan və Sloveniyanın coğrafiyalarında və ondan kənarda oynadıqları rol, eləcə də iki ölkə arasında əməkdaşlığın parlament səviyyəsində inkişafı barədə danışıqlar aparılıb.

Qeyd olunub ki, İkinci Dünya Müharibəsi zamanı böyük qəhrəmanlıq göstərmiş Mehdi Hüseynzadənin (Mixaylo) xatirəsi iki dost xalqı birləşdirən mühüm bağdır.

# Əmək qabiliyyətini itirənlərə müavinət tam ödəniləcək

***"Əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə ödənilən müavinət bundan sonra işçilərə tam həcmdə veriləcək".***

Bunu Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Sosial sığorta və pensiya siyasəti şöbəsi müdirinin müavini Emil Əliyev DOST TV-yə müsahibəsində deyib. "Bildiyiniz kimi, əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə ödənilən müavinət tam şəkildə ödənilirmirdi. Çünki orada sığorta stajı tələbi var idi. Məlumdur ki, 8 il sığorta stajı olana biz 60% ödəniş edirdik. 8-12 il sığorta stajı olana 80% və 12 ildən yuxarı, həmçinin müəyyən kateqoriyadan olan şəxslərə 100% miqdarında ödəniş olunurdu" , - Emil Əliyev bildirib.

O qeyd edib ki, yeni dəyişikliyə əsasən, sığorta stajı və ya hər hansı statusdan aslı olmayaraq, müavinətin məbləği vətəndaşa tam şəkildə - 100% ödəniləcək.

# Prezident onlara ali xüsusi rütbələr verdi



***İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin əməkdaşlarına ali xüsusi rütbələr verilib.***

"Unikal" xəbər verir ki, Prezident İlham Əliyev bununla bağlı Sərəncam imzalayıb.

Sərəncamla Dövlət Vergi Xidmətinin aşağıdakı əməkdaşlarına ali xüsusi rütbələr verilib:

"2-ci dərəcəli dövlət vergi xidməti müşaviri" ali xüsusi rütbəsi

Orxan Faiq oğlu Nəzərli - Dövlət Vergi Xidmətinin rəisi

"3-cü dərəcəli dövlət vergi xidməti müşaviri" ali xüsusi rütbəsi

Nicat Şükür oğlu İmanov - Vergi siyasəti baş idarəsinin rəisi

Abbas Cəlil oğlu İsmayılov - Vergi auditi baş idarəsinin rəisi

Səməd Ədil oğlu Vəliyev - 2 saylı Ərazi Vergilər Baş İdarəsinin rəisi.

Dövlət başçısının imzaladığı digər sərəncamla Dövlət Vergi Xidmətinin aşağıdakı işçiləri təltif edilib:

"Tərəqqi" medalı ilə

Əliyev Nazim Kazım oğlu.

# Dövlət Vergi Xidmətinin rəisi ilə bağlı sərəncam

***Xəbər verdiyimiz kimi, Prezident İlham Əliyev İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin əməkdaşlarına ali xüsusi rütbələrin verilməsi haqqında Sərəncam imzalayıb.***

"Unikal"ın məlumatına görə, Dövlət Vergi Xidmətinin rəisi Orxan Faiq oğlu Nəzərliyə "2-ci dərəcəli dövlət vergi xidməti müşaviri" ali xüsusi rütbəsi verilib.

Qeyd edək ki, O.Nəzərli 2021-ci ildə İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin rəisi vəzifəsinə təyin edilib.

# Rəhman Mustafayev Lavrovun müavini ilə görüşdü

***Azərbaycanın Rusiyadakı səfiri Rəhman Mustafayev Rusiya xarici işlər nazirinin müavini Mixail Qaluzinlə görüşüb.***

"Unikal" xəbər verir ki, bu barədə Rusiya XİN məlumat yayıb. Tərəflər ikitərəfli gündəmdə olan bir sıra aktual məsələləri müzakirə ediblər.

Mustafayev və Qaluzin Rusiya Federasiyası ilə Azərbaycan Respublikası arasında Müttəfiqlik Əməkdaşlığı haqqında Bəyannaməyə uyğun olaraq münasibətlərin daha da inkişaf etdirilməsinə sadiq olduqlarını bir daha təsdiqləyiblər.

Qarşıdan gələn siyasi əlaqələrin cədvəlləri nəzərdən keçirilib və bir sıra regional və beynəlxalq məsələlər müzakirə edilib.

Baş redaktor:
Zaur Əhməd

Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Son dəqiqə" MMC mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:2000

# Azərbaycanda bu tarixlərdə iş olmayacaq

***Azərbaycanda 3 gün ardıcıl qeyri-iş günü olacaq.***

"Unikal" xəbər verir ki, 8 Mart - Beynəlxalq Qadınlar Günü bu il bazar gününə təsadüf etdiyindən növbəti gün - 9 mart da qeyri-iş günü hesab olunacaq.

Beləliklə, 7 mart tarixinin şənbə gününə təsadüf etməsi ilə əlaqədar ölkədə 3 gün ardıcıl qeyri-iş günü olacaq.

# Səfərbərlik Xidmətinin işçiləri təltif olundu - Siyahı

***Azərbaycan Respublikası Prezidenti Prezident İlham Əliyev Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin hərbi qulluqçularının və mülki işçilərinin təltif edilməsi haqqında Sərəncam imzalayıb.***

"Unikal" xəbər verir ki, Sərəncama əsasən, xidməti vəzifələrini və qarşısında qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqləndiklərinə görə Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin aşağıdakı hərbi qulluqçuları və mülki işçiləri təltif ediliblər.

**"Vətən uğrunda" medalı ilə**

Qarayev Natiq Sahib oğlu - general-mayor
Cəfərov Elməddin Qulu oğlu - polkovnik
Quliyev İslam Ramiz oğlu - polkovnik
"Hərbi xidmətlərə görə" medalı ilə
Hidayev Əziz Şahmurad oğlu - polkovnik
Abbasov Hikmət Zahid oğlu - mayor
Əliyeva Samirə Təşkilat qızı - mayor

**"Tərəqqi" medalı ilə**

Sədrətdinov Pərviz Həsən oğlu.

# Müdafiə Nazirliyi gənc əsgərlərin yaxınlarına müraciət edib

***Müdafiə Nazirliyi gənc əsgərlərin yaxınlarına müraciət edib.***

"Unikal" xəbər verir ki, müraciətdə fevral ayı ərzində gənc əsgərlərlə görüşlərin yalnız 15-i və 22-si tarixlərində keçiriləcəyi bildirilib.



"Görüşlər yalnız şəxsiyyətini təsdiq edən sənədi təqdim etmiş yaxın qohumlara - valideynlər, həyat yoldaşı, uşaqlar, baba və nənə, həmçinin doğma və ögey (eyni ata və ya anası olan) qardaş və bacılara icazə veriləcək. Şəxsi heyətin sağlamlığının qorunması məqsədilə görüşlərə qida və ya ərzaq məhsulları gətirmək qadağandır", - nazirliyin müraciətində qeyd olunub.

# Naxçıvan deputatlarının etik davranış qaydaları dəyişdi

***Naxçıvan Ali Məclisi deputatının etik davranış qaydaları haqqında qanunvericilik genişləndirilib.***

"Unikal" xəbər verir ki, bu məsələ "Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının etik davranış qaydaları haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Qanunda öz əksini tapıb.

Belə ki, daha əvvəl deputatın etik davranış qaydaları haqqında qanunvericilik aşağıdakılardan ibarət idi:

Azərbaycan Respublikasının Konstitusiyası;

Naxçıvan Muxtar Respublikasının Konstitusiyası;

"Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının statusu haqqında" Naxçıvan Muxtar Respublikasının Qanunu;

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsi;

"Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının etik davranış qaydaları haqqında" Naxçıvan Muxtar Respublikasının Qanunu və buna uyğun hazırlanan digər normativ hüquqi aktlar;

Qanunla "Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanunu da bu siyahıya əlavə edilib.




Bununla "Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanunu Naxçıvan Ali Məclisi deputatları üçün etik davranış qaydaları haqqında qanunvericilik aktı hesab ediləcək.

# Azərbaycan və Türkiyəyə gedən dəmir yolu xətlərinin bərpasını müzakirə edəcəklər

***Moskva və İrəvan Ermənistanın Azərbaycan və Türkiyənin dəmir yolu xətləri ilə birləşdirilməsini təmin edəcək iki dəmir yolu sahəsinin bərpası ilə bağlı konkret danışıqlara başlayacaq.***

"Unikal" xəbər verir ki, bu barədə Rusiya Baş nazirinin müavini Aleksey Overçuk jurnalistlərə açıqlaması zamanı bildirib.

Onun sözlərinə görə, qərar Ermənistan tərəfinin müraciəti əsasında qəbul olunub. Söhbət Ermənistanın dəmir yolu şəbəkəsini Yerasx kəndi yaxınlığında Azərbaycanın dəmir yolları, həmçinin Axuryan yaşayış məntəqəsi yaxınlığında Türkiyənin dəmir yolları ilə birləşdirəcək sahələrdən gedir.

A.Overçuk qeyd edib ki, bərpa olunacaq sahələrin ümumi uzunluğu təxminən 1,6 kilometr və 12,4 kilometr təşkil edir. Danışıqlar zamanı layihənin həyata



keçirilməsinin texniki, maliyyə və digər şərtlərinin müəyyən edilməsi planlaşdırılır. O vurğulayıb ki, həmin sahələrin bərpası Rusiyaya Naxçıvan, Türkiyə vasitəsilə Aralıq dənizi limanlarına, həmçinin İran vasitəsilə Körfəz və Hind okeanı limanlarına birbaşa dəmir yolu çıxışı imkanı verəcək.

Baş nazirin müavini bildirib ki, Rusiya Cənubi Qafqaz regionunda bütün iqtisadi və nəqliyyat əlaqələrinin blokdan çıxarılması istiqamətində ardıcıl işi davam etdirir. Xüsusilə, dağılmış nəqliyyat xətlərinin bərpası üzrə tədbirlər görülür.

"Qafqazda nəqliyyat-logistika əlaqələrinin gücləndirilməsi Azərbaycan, Ermənistan, Gürcüstan, İran, Türkiyə və Rusiya xalqları üçün sülh, sabitlik və iqtisadi rifah baxımından kritik əhəmiyyət daşıyır. Bu mühüm vəzifənin həllində region ölkələrinin hamısının konstruktiv əməkdaşlığına ümid edirik", - deyə o söyləyib.

Baş nazirin müavini, həmçinin xatırladıb ki, 1991-ci ildən bəri ilk dəfə olaraq ötən il Azərbaycan və Gürcüstan əraziləri vasitəsilə Rusiya ilə Ermənistan arasında dəmir yolu hərəkəti bərpa olunub. Birbaşa əlaqənin açılması Rusiya mallarının xarici bazarlara çıxışı üçün daha rəqabətli şərait yaradıb və qarşılıqlı ticarətin genişlənməsinə töhfə verir.

06_27 IYUl-QARA.qxd 2/12/2026 10:38 PM Page 6



# "Dövlətə xəyanət işi"nin şok detalları

## DTX Ramiz Mehdiyev, Abbas Abbasov, Əli Kərimli və digərləri barədə məlumat yaydı

***Dövlət Təhlükəsizliyi Xidməti Ramiz Mehdiyev barəsindəki cinayət işi ilə bağlı detalları açıqlayıb.***

Bu barədə "Unikal"a DTX-dən məlumat verilib. Bildirilib ki, xarici xüsusi xidmət orqanlarının Azərbaycanın təhlükəsizliyinə, milli maraq və mənafelərinə qarşı həyata keçirdikləri təxribat-pozuculuq fəaliyyətinin qarşısının alınması ilə bağlı Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən görülmüş kompleks tədbirlər nəticəsində Azərbaycan Respublikasının vətəndaşları - Mehdiyev Ramiz Ənvər oğlu, Abbasov Abbas Aydın oğlu, Kərimli Əli Əmirhüseyn oğlu və qeyrilərinin hakimiyyətin zorla ələ keçirilməsinə, dövlətin konstitusiya quruluşunun zorla dəyişdirilməsinə yönələn hərəkətlər etmələrinə əsaslı şübhələr yaranıb.

Cinayət işi üzrə təqsirləndirilən şəxslərə elan edilmiş ittihama əsasən, xarici ölkənin xüsusi xidmət orqanları tərəfindən Azərbaycandakı siyasi proseslərə müdaxilə etmək məqsədilə yaradılaraq 4 iyul 2012-ci ildə xarici ölkədə "Rusiya Azərbaycan Təşkilatları İttifaqı" adı altında qeydiyyatdan keçirilmiş və "Milyarderlər İttifaqı" adlandırılan təşkilatın həmtəsisçiləri və rəhbərləri olmuş Abbasov Abbas Aydın oğlu və İbrahimbəyov Rüstəm Məmməd İbrahim oğlu, eləcə də Mehdiyev Ramiz Ənvər oğlu, Azərbaycan Xalq Cəbhəsi Partiyasının (AXCP) sədri Kərimli Əli Əmirhüseyn oğlu, partiyanın üzvləri - Qəhrəmanlı Fuad Əli oğlu, Zayıdov Qənimət Səlim oğlu və qeyriləri dövlət hakimiyyətinin zorla ələ keçirilməsi, dövlətin mövcud konstitusiya quruluşunun zorla dəyişdirilməsi barədə sövdələşiblər.

Belə ki, onlar 2013-cü ildə Azərbaycan Respublikası Prezidenti seçkilərində xarici ölkə vətəndaşı Rüstəm İbrahimbəyovun namizədliyini irəli sürən "Demokratik Qüvvələrin Milli Şurası" (Milli Şura) adlı təşkilat yaratdıqdan sonra xarici xüsusi xidmət orqanlarının maddi yardımı və digər formalarda təşkilati dəstəyi ilə dövlət hakimiyyətinin zorla ələ keçirilməsi üçün kütləvi iğtişaşların törədilməsi, hakimiyyət nümayəndələrinin qanuni tələblərinə tabe olunmaması, ictimai qaydanın, nəqliyyat, müəssisə, idarə və təşkilatların işinin pozulması istiqamətində fəaliyyət göstərmiş, həmçinin bu məqsədlə respublikanın müxtəlif rayonlarından insanların cəlb edilməsi üçün AXCP-nin üzvü İbrahim Məmməd Əziz oğlu və digərləri vasitəsilə qəbul etdikləri 933 828 manat məbləğində pul vəsaitini, o cümlədən Ramiz Mehdiyev və Abbas Abbasovdan əldə edilən maddi vəsaitləri qeyd olunan əməllərin törədilməsinə yönəldiblər.

Cinayət işinin materiallarına əlavə edilmiş texniki sübutlara əsasən, "Milyarderlər İttifaqı" adlandırılan təşkilatın üzvlərinə yaşadıqları xarici ölkədə tabeliklərində işləyən və ya digər formada himayələrində olan Azərbaycan vətəndaşlarının 2013-cü ildə Prezident seçkiləri zamanı Azərbaycana göndərilmələri, onların hər birinin Azərbaycandakı qohumları və yaxınlarını cəlb edərək, xarici xüsusi xidmət orqanının təlimatına uyğun şəkildə mitinqlər və kütləvi iğtişaşlarda istifadə olunmalarını təmin etmələri barədə tapşırıqlar verilib.

Məlum olmuşdur ki, qabaqcadan aparılan danışıqlar nəticəsində müvafiq xarici dövlətin səlahiyyətli şəxslərinin istəyinə uyğun olaraq, "Milli Şura"nın 2013-cü ildə bu xarici dövlətin rəhbərliyinə ünvanladığı gizli məktubda "şura"nın fəaliyyətinin dəstəklənməsi xahiş edilmiş, həmin ölkədə aparılan "islahatlar"ın Azərbaycanda da həyata keçirilməsi üçün Azərbaycan dövlətinə təzyiq göstərilməsi təklif edilib.

Qeyd olunan ittihama əsasən, Qənimət Zayıdov 2013-cü ilin əvvəlindən etibarən Əli Kərimlinin adından xarici ölkənin xüsusi xidmət orqanlarının nümayəndələri ilə gizli əlaqəyə girərək danışıqlar aparmış, onun Azərbaycan Respublikasında hakimiyyətə gətirilməsində xarici xüsusi xidmət orqanlarının geniş təşkilati və xüsusi imkanlarından istifadə edilməsi üçün müraciət etmiş, qarşılığında Azərbaycanda xarici dövlətin strateji maraqlarının təmin ediləcəyinə konkret detallar sadalamaqla vəd etmiş, eləcə də tərəflər Əli Kərimli hakimiyyətə gələcəyi təqdirdə Azərbaycan Respublikasının mərhələli qaydada Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına tam üzv olacağı barədə razılaşıblar.

Eyni zamanda ittihama əsasən, Əli Kərimli adıçəkilən şəxslərlə qabaqcadan əldə olunmuş ümumi razılaşmaya uyğun qaydada cinayət əməllərini davam etdirərək, Azərbaycanın Qarabağ bölgəsində Ermənistanın apardığı təcavüzkar müharibəyə qarşı və orduya dəstək üçün Azərbaycan vətəndaşları 2020-ci ilin iyul ayının 14-dən 15-nə keçən gecə Bakı şəhərində yürüş etdikləri zaman Fuad Qəhrəmanlı və digərlərinə partiyanı təmsil edən şəxslərlə birlikdə kiçik qruplar təşkil etməklə yürüş iştirakçılarına qoşulmaq, daha sonra vətənpərvərlik şüarlarını təxribat xarakterli çağırışlarla əvəz edərək xaotik vəziyyət yaratmaq, bu vəziyyətdən yararlanıb kütləni idarə etməklə, Azərbaycan Respublikası Milli Məclisinin və "Azərbaycan Televiziya və Radio Verilişləri" QSC-nin inzibati binalarını ələ keçirmək, o cümlədən kütləvi informasiya vasitələri ilə hakimiyyətin ələ keçirilməsini bəyan edəcəyi barədə tapşırıqlar verib.

Bundan başqa, Ramiz Mehdiyev 2025-ci ilin avqust-sentyabr aylarında dövlət hakimiyyəti əleyhinə gizli plan və fəaliyyət istiqamətlərini özündə ehtiva edən "Dövlət idarəetmə sisteminin yenidən qurulması haqqında təkliflər" başlığı altında müvafiq xarici dildə hazırladığı yazılı materialı köməkçisi Əmirov Eldar Qurban oğlu və digərləri vasitəsilə həmin sənəddə nəzərdə tutulan məsələlərin birgə razılaşdırılması məqsədilə 27 sentyabr 2025-ci il tarixində Əli Kərimliyə təqdim etmiş, 2025-ci ilin oktyabr ayının 3-də sözügedən yazının yekun redaktə olunmuş nüsxəsini qabaqcadan şəxsən əlaqə saxladığı xarici dövlətin xüsusi xidmət orqanlarının rəhbər vəzifəli şəxslərinə faktiki sahibi olduğu "Şərq-Qərb" ASC-nin əməkdaşları vasitəsilə göndərmiş, qeyd olunan göndəriş texniki olaraq fiksə edilib.



Bu əməlləri ilə Ramiz Mehdiyev dövlət hakimiyyətinin xarici xüsusi xidmət orqanlarının köməyi ilə ələ keçirilməsi və konstitusiya quruluşunun zorla dəyişdirilməsinə yönələn hərəkətlər etmiş, xarici dövlətin nümayəndələrinə Azərbaycan Respublikasının dövlət təhlükəsizliyi maraqlarına zidd kömək etməklə dövlətə xəyanət edib.

Bundan əlavə, Ramiz Mehdiyev 13 oktyabr 2025-ci il tarixinədək olan müddətdə cinayət yolu ilə əldə edilmiş 17 milyon manatdan artıq pul vəsaitini leqallaşdırıb.

Sadalanan cinayət əməllərində iştiraklarına görə, Abbas Abbasov, Əli Kərimli, Fuad Qəhrəmanlı, Məmməd İbrahim və Qənimət Zayıdov Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 278.1 (hakimiyyətin zorla ələ keçirilməsinə, yaxud zorla saxlanılmasına, habelə dövlətin konstitusiya quruluşunun zorla dəyişdirilməsinə yönələn hərəkətlər), Eldar Əmirov 32.5, 278.1 (hakimiyyətin zorla ələ keçirilməsinə, yaxud zorla saxlanılmasına, habelə dövlətin konstitusiya quruluşunun zorla dəyişdirilməsinə yönələn hərəkətlərə kömək etmə), Ramiz Mehdiyev 193-1.3.2 (cinayət yolu ilə əldə edilmiş xeyli miqdarda əmlakı leqallaşdırma), 274 (dövlətə xəyanət) və 278.1-ci maddələri ilə təqsirləndirilən şəxs qismində məsuliyyətə cəlb edilib.

Abbas Abbasov, Fuad Qəhrəmanlı və Qənimət Zayıdov Azərbaycan Respublikası ərazisindən kənarda olduqları və istintaqdan gizləndikləri üçün barələrində axtarış elan edilməklə, məhkəmə tərəfindən qiyabi həbs qətimkan tədbiri seçilmişdir.

Cinayət işi üzrə araşdırmalar davam etdirilir.



# Dövlət əleyhinə çağırışlarda təqsirləndirilən Manaf Cəlilzadənin məhkəməsi başlayıb

***Dövlət əleyhinə yönələn açıq çağırışlar etməkdə təqsirləndirilən Manaf Cəlilzadənin cinayət işi üzrə məhkəmənin hazırlıq iclası keçirilib.***

Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Aytən Əliyevanın sədrliyi ilə keçirilən prosesdə anket məlumatları dəqiqləşdirilib.

Cinayət işi məhkəmə baxışına verilib və baxış iclası fevralın 26-na təyin edilib.

Qeyd edək ki, Manaf Cəlilzadə barəsində Cinayət Məcəlləsinin 281.2-ci maddəsi ilə təqsirləndirilən şəxs qismində cəlbetmə haqqında qərar qəbul edilib. O, istintaqdan qaçaraq Azərbaycan hüdudlarından kənarda gizləndiyi üçün barəsində ittiham elan edilməsi ilə bağlı axtarış elan olunub. Binəqədi Rayon Məhkəməsinin ötən il 15 fevral tarixli qərarı ilə barəsində qiyabi həbs qətimkan tədbiri seçilib.

Sentyabrın 19-da ittihamın məzmununa əlavələr və dəyişikliklər edilərək Manaf Cəlilzadə barəsində Cinayət Məcəlləsinin 220.2-ci və 281.2-ci maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb etmə haqqında qərar qəbul edilib.

O, fevralın 17-si 2019-cu il tarixində Süleyman Süleymanlı, Tofiq Mehmanov və qeyriləri ilə qabaqcadan əlbir olan bir qrup şəxs halında birləşərək İsveçrə Konfederasiyasının Cenevrə şəhərində Birləşmiş Millətlər Təşkilatının Cenevrə bürosu yaxınlığında ictimai yerdə Mehman Məmmədov və digərlərinin Azərbaycan Respublikasının Konstitusiya quruluşunun zorla dəyişdirilməsinə yönələn açıq çağırışlarını əvvəlcədən razılaşdırılmış formada video lentə alıb, "Youtube" platformasında "Diktator TV" adlı kanalında canlı yerləşdirərək Azərbaycanda qanuni əsaslarla formalaşmış və fəaliyyət göstərən mövcud hakimiyyətə qarşı zor tətbiqini təşviq edən açıq çağırışlar edib. Daha sonra 19 yanvar 2023-cü ildən 17 iyun 2025-ci il tarixinədək hazırladığı 19 müxtəlif videomüraciətlə ictimai əmin-amanlığın və dincliyin, təhlükəsizliyin pozulmasına səbəb olan, hakimiyyət orqanlarını iflic vəziyyətə salmağa, insanların iradəsinə təsir etməyə çalışan açıq çağırışlar edib.

Təqsirləndirilən şəxsə qiyabi icraatın açıla biləcəyi, qiyabi hökmün və məhkəmənin digər qərarının çıxarılacağı barədə xəbərdarlıq edilib.

Bildirilib ki, çağırışa gəlmədiyi halda barəsində qiyabi icraat açıla, qiyabi hökm və ya məhkəmənin digər yekun qərarı çıxarıla bilər.

06_27 IYUl-QARA.qxd 2/12/2026 10:38 PM Page 7



# Ramiz Mehdiyevin zəng edərək danışdığı qadının kimliyi məlum oldu



*Dövlət Təhlükəsizlik Xidməti (DTX) bu gün yaydığı video materialda Prezident Administrasiyasının sabiq rəhbəri Ramiz Mehdiyevin naməlum bir qadınla telefon danışığının fraqmenti var. Söhbət zamanı Ramiz Mehdiyev qadından Azərbaycanda "dövlət idarəetmə sistemində dəyişiklik"lə bağlı - faktiki olaraq, dövlət çevrilişindən sonrakı idarəetmə modelinə dair hazırladığı məktubu kimlərəsə ötürmək üçün məsləhət istəyir. Video fraqmentdə qadının şəxsiyyəti açıqlanmayıb.*

"Unikal" Apa-ya istinadən xəbər verir ki, bu qadın Rusiya Elmlər Akademiyasında (REA) çalışır və R. Mehdiyevin Rusiya təhlükəsizlik orqanları ilə təmaslarında vasitəçilik edib. Mənbə bildirib ki, Mehdiyev AMEA prezidenti olduğu dövrdə (2019-2022) Rusiyadakı kuratorları ilə məhz təhlükəsizlik orqanlarının REA-dakı agenturası vasitəsilə əlaqə saxlayıb.

Qeyd edək ki, Ramiz Mehdiyev 2022-ci il fevralın 19-da AMEA prezidenti vəzifəsindən azad edilib. Bu hadisədən cəmi 3 ay əvvəl - 2021-ci il noyabrın 25-26-da o, Bakıda Rusiya Elmlər Akademiyasının prezidenti Aleksandr Sergeyevin rəhbərlik etdiyi nümayəndə heyətini qarşılayıb. Mehdiyev qonaqları Heydər Əliyev Beynəlxalq Hava Limanında şəxsən qarşılayıb, AMEA-da keçirilən görüşdə isə ona REA-nın xatirə medalı təqdim olunub.

Rusiya kəşfiyyat orqanlarının (xüsusilə FSB-nin) Rusiya Elmlər Akademiyasında və digər elmi müəssisələrdə güclü nəzarət mexanizmləri və agentura şəbəkəsi saxlaması faktı beynəlxalq media və araşdırmalarda dəfələrlə qeyd olunub. Bu sistem SSRİ dövründən qalıb və bəzən kəşfiyyat əməkdaşları RAN-da "məsləhətçi" və ya "ekspert" kimi fəaliyyət göstərir. Mənbənin bildirdiyinə görə, Ramiz Mehdiyevin əlaqə saxladığı qadın da məhz belə "ekspert"lərdən biridir.

Həmin şəxsin şəxsiyyəti məlum olsa da, istintaq maraqlarına görə hələlik açıqlanmır.

# Əli Kərimli AzTV-ni ələ keçirməklə bağlı tapşırıq veribmiş

*Xəbər verdiyimiz kimi, Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən dövlət hakimiyyəti əleyhinə yönələn cinayət əməlləri ilə bağlı araşdırma tədbirləri həyata keçirilib.*

"Unikal" xəbər verir ki, bu barədə DTX-nin Mətbuat xidməti məlumat yayıb.

Bildirilir ki, Azərbaycan Xalq Cəbhəsi Partiyasının (AXCP) sədri Kərimli Əli Əmirhüseyn oğlu partiyanın üzvü Qəhrəmanlı Fuad Əli oğluna Milli Məclis və AZTV-nin nin inzibati binalarını ələ keçirmək barədə tapşırıqlar verib.

Belə ki, Əli Kərimli Azərbaycanın Qarabağ bölgəsində Ermənistanın apardığı təcavüzkar müharibəyə qarşı və orduya dəstək üçün Azərbaycan vətəndaşları 2020-ci ilin iyul ayının 14-dən 15-nə keçən gecə Bakı şəhərində yürüş etdikləri zaman Fuad Qəhrəmanlı və digərlərinə partiyanı təmsil edən şəxslərlə birlikdə kiçik qruplar təşkil etməklə yürüş iştirakçılarına qoşulmaq, daha sonra vətənpərvərlik şüarlarını təxribat xarakterli çağırışlarla əvəz edərək xaotik vəziyyət yaratmaq, bu vəziyyətdən yararlanıb kütləni idarə etməklə, Azərbaycan Respublikası Milli Məclisinin və "Azərbaycan Televiziya və Radio Verilişləri" QSC-nin inzibati binalarını ələ keçirmək, o cümlədən kütləvi informasiya vasitələri ilə hakimiyyətin ələ keçirilməsini bəyan edəcəyi barədə tapşırıqlar verib.

Qeyd edilib ki, cinayət işi üzrə araşdırmalar davam etdirilir.

# Rəşad Nəbiyev Məhəmməd Əli Əl-Şorafa ilə görüşdü

*Rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev Əbu-Dabi Əmirliyinin Bələdiyyələr və nəqliyyat departamentinin sədri Məhəmməd Əli Əl-Şorafanın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüş keçirib.*

"Unikal" xəbər verir ki, görüş zamanı Əbu-Dabi və Azərbaycan arasında şəhər nəqliyyatının inkişafı sahəsində əməkdaşlıq imkanları müzakirə edilib.

Bakı şəhərində həyata keçirilən nəqliyyatın optimallaşdırılması tədbirləri, yeni elektrikli avtobusların alınması, eləcə də mikromobillik və parklanma infrastrukturunun yaradılması ilə bağlı fikir mübadiləsi aparılıb.

# "Prezident bunu şəxsən gündəmə gətirib və konkret tapşırıqlar verib"

## Tahir Mirkişili: "Bu, xaricə mesajdır ki, Azərbaycan rəqəmsal sahədə ciddi xətt götürüb və əməkdaşlığa açıqdır"



*Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü, deputat Tahir Mirkişili "Unikal"a müsahibə verib. O, Prezident İlham Əliyevin sədrliyi ilə keçirilən "Azərbaycanın yeni rəqəmsal arxitekturası" adlı vahid fəaliyyət planına həsr olunmuş müşavirənin əhəmiyyətindən, nazirliklərdə rəqəmsallaşma üzrə müavinin ayrılmasının hansı üstünlüklər yaradacağından və bu istiqamətdə nəzərdə tutulan digər məsələlərdən danışıb.*

*-Tahir müəllim, ötən gün Prezident İlham Əliyevin sədrliyi ilə "Azərbaycanın yeni rəqəmsal arxitekturası" adlı vahid fəaliyyət planına həsr olunmuş müşavirə keçirilib. İlk olaraq ondan başlayaq ki, müşavirənin əhəmiyyətini necə qiymətləndirirsiz?*

-Açığı, bu müşavirə çox vacib mövzuya həsr olunub. Çünki, rəqəmsallaşma artıq hər qurum öz bildiyini edir səviyyəsində yox, vahid planla, vahid qayda ilə idarə olunacaq. Bu da o deməkdir ki, dövlət xidmətləri tədricən daha sürətli, rahat və şəffaf olacaq. Ən önəmlisi isə odur ki, cənab Prezident bu mövzunu şəxsən gündəmə gətirib və konkret tapşırıqlar verib. Bu, sadəcə gözəl ideya deyil, icra olunacaq iş kimi ortaya qoyulub.

*-Dövlət başçısı müşavirədə bir sıra tapşırıqlar verdi. Bunlardan biri də hər bir dövlət qurumunda, ilk növbədə, nazirliklərdə rəqəmsallaşma, süni intellekt, kibertəhlükəsizlik üzrə bir müavinin ayrılması və ya yeni ştat vahidinin yaradılması ilə bağlıdır. Nazirliklərdə bu sahə üzrə ayrılacaq müavinlər əsasən nələrə diqqət yetirməlidir?*

-Hesab edirəm ki, bu müavinlərin işi kompüter, proqram almaq yox, işi sadələşdirmək olmalıdır. Yəni, vətəndaş hansı xidmət üçün gəlirsə, onu bir neçə qapı gəzdirmədən həll etmək, lazımsız arayışları azaltmaq, qurumun içindəki prosesləri kağızdan çıxarıb normal sistemə salmaq, sistemlərin bir-biri ilə danışmasını təmin etmək və ən əsası təhlükəsizliyi gözdən qaçırmamaq. Bir sözlə, fikrimcə həmin müavin IT rəhbəri deyil, islahatçı menecer kimi işləməlidir.

*-Fevralın 10-da Azərbaycan və ABŞ Strateji Tərəfdaşlıq Xartiyası çərçivəsində ikitərəfli əməkdaşlığın beş əsas məqsədini müəyyənləşdirib. Amerika Hökuməti ilə Azərbaycan Hökuməti arasında imzalanmış Strateji Tərəfdaşlıq Xartiyası ölkəmizə rəqəmsallaşma ilə bağlı hansı üstünlüklər verə bilər?*

-Bu sənəd bizə bir neçə tərəfdən üstünlük verə bilər. Birincisi, bu, xaricə mesajdır ki, Azərbaycan rəqəmsal sahədə ciddi xətt götürüb və əməkdaşlığa açıqdır. Bu da daha çox texnoloji tərəfdaşlıq, daha çox investisiya və daha çox birgə layihə deməkdir. İkincisi, data mərkəzləri, süni intellekt, kibertəhlükəsizlik kimi sahələrdə ABŞ şirkətləri ilə əməkdaşlıq imkanları genişlənə bilər. Bu, həm texnologiya, həm təcrübə, həm də bazar baxımından bizim üçün plusdur.

*-Orta məktəblərdə və ali təhsil müəssisələrində dərs vəsaitlərində müasir texnologiyalarla bağlı hansı əlavələr oluna bilər?*

-Məncə, uşaqlara tək kompüterdən istifadəni yox, düzgün istifadə və rəqəmsal düşünmə tərzini öyrətmək vacibdir. Məsələn, internetdə məlumatı necə yoxlamaq (aldanmamaq üçün), şəxsi məlumatı necə qorumaq (parol, təhlükəsizlik vərdişləri), süni intellekt nədir, necə işləyir, nə vaxt kömək edir, nə vaxt aldatmaya bilər, sadə məntiq, alqoritm düşüncəsi (problem həll etmə bacarığı) və data savadlılığı (qrafik oxumaq, müqayisə etmək, analiz etmək). Ən yaxşısı isə dərsi quru nəzəriyyə yox, layihə ilə keçməkdir. Uşaqlar nəsə bir şey hazırlasınlar. Bunlar kiçik proqram, kiçik ideya, bir problemin həlli və s. ola bilər.

*-Prezident süni intellektin tətbiqinin dövlət qurumlarında geniş vüsət almalı olduğunu söyləyib. Qarşıdakı dövrdə dövlət qurumlarında süni intellektdən geniş istifadə etmək hansı imkanlar yaradacaq?*

-Ən sadə dillə desəm, vaxt qazandıracaq, işi sürətləndirəcək, səhvləri azaldacaq. Məsələn, müraciətlər daha tez cavablanacaq, sənədlər daha tez yoxlanacaq, vətəndaş sual verəndə 24/7 cavab ala biləcək, bəzi risklər qabaqcadan görüləcək (məsələn, uyğunsuzluq, saxtakarlıq halları və s.), dövlət işçiləri xırda rutin işlərə yox, əsas işlərə fokuslana biləcək. Amma bir şərtlə, süni intellekt tətbiq olunanda təhlükəsizlik, məlumatın qorunması və məsuliyyət tərəfi də mütləq güclü olmalıdır. Yoxsa, sürət artır, risk də arta bilər.

***Anar Kəlbiyev***

06_27 IYUI-QARA.qxd 2/12/2026 10:39 PM Page 8



# TƏBİB Azərbaycanı həkimsiz qoya bilər

## Vüqar Qurbanovun müşavirinin qaldırdığı problemin pərdəarxası - Səhiyyəmizdən beyin axınının günahını kimdə axtaraq?




***Almaniyanın Mannheim Universiteti Klinikasının cərrahi şöbəsinin cərrahı, ümumi cərrahiyyə bölməsinin müdiri, professor, eyni zamanda TƏBİB sədri Vüqar Qurbanovun müşaviri olan Vüqar Yaqublu bu günlərdə maraqlı mülahizələr səsləndirib. Azərbaycan səhiyyəsinin mövcud durumundan danışan Yaqublu öz çıxışında Almaniya səhiyyəsi ilə fərqləri də diqqətə çatdırıb.***

"Bakupost TV"də danışan professor Azərbaycanda 90, Almaniyada isə 2095 adda cərrahi prosedurun mövcud olduğunu deyib. Bildirib ki, Almaniyada cərrahi əməliyyatlardan sonra ağırlaşma hallarının statistik olaraq daha çox qeydə alınması nəzarət və şəffaflığın yüksək olması ilə bağlıdır;

Onun sözlərindən aydın olub ki:

- Almaniyada xəstənin sol ayağı əvəzinə sağ ayağının əməliyyat edilməsi kimi tibbi səhvlər belə rəsmi statistikaya düşür;
- Azərbaycanlı həkimlər Almaniyada bir çox klinikalarda ən yaxşı 10 mütəxəssis sırasında yer alırlar.

Professor bildirib ki, bu gün dünya ixtisaslı tibbi kadrlar uğrunda ciddi mübarizə aparır və Azərbaycan bu prosesdən kənarda qalmamalıdır. Onun sözlərinə görə, hər il təxminən 1500-ə yaxın tibb məzunu universitetləri bitirsə də, onların cəmi 300-ə yaxını Azərbaycanda fəaliyyətini davam etdirir, digərləri isə xaricə üz tutur. Bu tendensiya dəyişməzsə, gələcəkdə Azərbaycanın xarici ölkələrdən, o cümlədən Şərq respublikalarından həkim dəvət etməyə məcbur qala biləcəyi istisna olunmur.

Bir sözlə, TƏBİB-in müşaviri, belə davam edərsə, Azərbaycanın həkimsiz qala biləcəyinə açıq işarə vurub.

Bu, ölkəmiz üçün əlbəttə ki, ciddi problemdir. Lakin ilk növbədə elə TƏBİB-in özünün müəyyənləşdirdiyi və tətbiq etdiyi idarəetmə modelinin yaratdığı problemdir. Hörmətli professor inciməsin, ancaq problem haqqında danışmaq qədər onu doğuran səbəbləri danışmaq da önəmlidir. Hətta sonuncu daha vacib, daha təleyüklüdür!

Bir halda ki, Azərbaycanlı həkimlər Almaniyada bir çox klinikalarda ən yaxşı 10 mütəxəssis sırasında yer alırlar, bəs onda niyə onlar öz ölkələrini qoyub xaricə üz tuturlar? Bəlkə, Vüqar müəllimin sədr müşaviri olduğu TƏBİB-də ilk növbədə elə bu sual ətrafında baş sındırsınlar?

İllərdir ölkə mediası sözügedən mövzuda yazır, yuxarıdakı suallara cavab axtarır, müxtəlif fərziyyələr ortaya qoyur. Məsələn, iqtisadiyyat yazarı Dünya Sakit kimi: "Azərbaycanda rezidenturanı bitirdikdən sonra yüksək maaşla işə düzəlməyin qarantiyası yoxdur. Dövlət xəstəxanalarında şərait ürəkaçan deyil, buna görə də yaxşı iş şəraiti və yüksək maaş istəyən həkimlər özəl klinikalara üz tuturlar. Özəl klinikalar da daha çox xaricdə təhsil almış və işləmiş həkimlərə üstünlük verir. Beləliklə də gənc həkimlər məcbur olurlar çətinlikləri aşaraq xaricə getsinlər. Çünki orada yüksəlmək, inkişaf etmək, ən əsası isə yaxşı qazanmaq imkanları var".

Yaxud, professor Adil Qeybulla kimi: "Həkimlərin maaşları elə də yüksək deyil. Şərait dəyişməlidir, münasibət dəyişməlidir. Bəzi məsələləri aradan qaldırmaq lazımdır, məsələn, sertifikasiya imtahanını qeyd edək. Həkimlərə tətbiq olunan sertifikasiya imtahanı ümumiyyətlə biabırçılıqdır. Dünyanın heç bir yerində belə şey yoxdur. Burada normal şərait olsa, kim Vətəndən qaçar?"

Ya da tanınmış həkim Aydın Əliyevin sözləri ilə desək: "TƏBİB həkimlərə qəpik-quruş verir. Məsələn, TƏBİB-dən 18 manatlıq tibbi sığorta ilə keçirilən müayinədən həkimə 1 manat 10 qəpik pul ayrılır. Bu çox acınacaqlı bir vəziyyətdir. Bir həkim gün ərzində neçə xəstə müayinə etməlidir ki, 20 manat qazansın?! Bizdə rezidenturaya daxil olan həkim 300-400 manat əmək haqqı alır. Unutmayaq ki, rezidentlər əsasən ailəli olurlar. 400 manatla ailə saxlamaq olar?! Halbuki, Avropada rezidentlər 3 min avro maaş alır. Rezidentura müddəti artdıqca əməkhaqları daha da artır, hətta aylıq 5 min avroya qədər əməkhaqqı verilir. Bu gedişlə yaxın illərdə Bakıda da ciddi həkim çatışmazlığı yaşayacağıq".

Bir sözlə, TƏBİB sədri Vüqar Qurbanovun müşavirinin Azərbaycan və Almaniya səhiyyəsi arasında fərqlərə diqqət çəkməsi, səhiyyəmizdən beyin axınının təhlükəli həddə çatdığını dilə gətirməsi təqdirəlayiqdir. Lakin o da bir faktdır ki, ölkədəki həkimlərin çoxu səhiyyə sistemindəki mövcud idarəçilik modelindən - üçbaşlılıqdan (Səhiyyə Nazirliyi - TƏBİB - İcbari Tibbi Sığorta Agentliyi) narazıdırlar, zəhmətlərinin qiymətləndirilməsindən şikayətçidirlər. Bu faktı görməzdən gələrək, xüsusilə də TƏBİB-in ölkə həkimlərində yaratdığı xəyal qırıqlığını nəzərə almayaraq, Azərbaycan həkimlərinin xaricə axınını önləmək mümkün deyil. Bir sözlə, diqqətləri nəticəyə deyil, səbəbə yönəltmək lazımdır. Bəlkə, belədə ölkəmizdə yaxın zamanlarda aşkar hiss olunacaq həkim qıtlığını zamanında önləmək mümkün oldu...

***Sənan Mirzə***

# Gültəkin Hacıbəyli Azərbaycana deportasiya edildi



***Sabiq deputat Gültəkin Hacıbəyli Türkiyədən Azərbaycana deportasiya edilib.***

"Unikal" xəbər verir ki, bu barədə AXCP sədrinin müavini Fuad Qəhrəmanlı məlumat yayıb.

F.Qəhrəmanlı ölkəyə qayıdan Hacıbəylinin hazırda azadlıqda olduğunu bildirib.

Qeyd edək ki, G.Hacıbəyli 2 ay əvvəl Türkiyədə saxlanılmışdı. Prezident Adminstrasiyasının sabiq rəhbəri Ramiz Mehdiyevin cinayət işi çərçivəsində istintaqa dəvət olunan Hacıbəyli İstanbul şəhərində, Arnavutköy Geri Göndərmə Mərkəzində saxlanılırdı. Həmin müddətdə onun Türkiyədən 5 illik deportasiya edilməsi barədə qərar çıxarılmışdı.

# Vətəndaşları müəllim işinə düzəldəcəyi adı ilə aldatdı - 200 min manat...



***Bakıda orta məktəbə müxtəlif ixtisaslar üzrə müəllim vəzifəsinə işə düzəldəcəyi ilə bağlı yalan vəd verərək dələduz etməkdə təqsirləndirilən Zaur Mustafayevin cinayət işi üzrə məhkəmə prosesi keçirilib.***

"Unikal"ın məlumatna görə, Bakı Ağır Cinayətlər Məhkəməsinin hakimi Azər Tağıyevin sədrliyi ilə keçirilən prosesdə şahid dindirilib. Daha sonra məhkəmə digər şahidlərin məcburi qaydada prosesə gətirilməsi ilə bağlı qərar çıxarıb.

Məhkəmənin növbəti iclası fevralın 26-na təyin edilib.

Xatırladaq ki, cinayət işində ümumi ziyanın miqdarı 200 mindən çoxdur. Təqsirləndirilən şəxslər zərərçəkənlərə vəd verib ki, onları orta məktəbə müxtəlif ixtisaslar üzrə müəllim vəzifəsinə işə düzəldəcək. Təqsirləndirilən şəxs Zaur Mustafayev isə Bakı şəhərində 116 saylı orta məktəbdə müəllim işləyib.

Qeyd edək ki, ona qarşı Cinayət Məcəlləsinin 178.3.2-ci (külli miqdarda dələduzluq etmə) maddəsi ilə ittiham irəli sürülüb.

***Orxan Rasifoğlu***

# Büdcəyə 87 milyon manatdan artıq əlavə gəlir daxil olub

***2026-cı ilin yanvar ayında dövlət büdcəsinin icrasında müsbət dinamika müşahidə olunub. Bu dövrdə xəzinədarlıq orqanları tərəfindən 37 mindən çox ödəniş tapşırığı icra edilib və dövlət büdcəsinin gəlirlərinin icrasında yüksək göstəricilər qeydə alınıb.***

Bu barədə "Unikal"a Maliyyə Nazirliyindən məlumat verilib. Bildirilib ki, cari ilin yanvar ayı ərzində dövlət büdcəsinin gəlirləri 3 707,3 milyon manat təşkil edib ki, bu da aylıq proqnozu 32,0 milyon manat və ya 0,9 faiz üstələyib.

Dövlət büdcəsinin gəlirlərində İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin xətti ilə daxilolmalar 2 050,3 milyon manat təşkil edərək proqnozdan 50,3 milyon manat və ya 2,5 faiz, Dövlət Gömrük Komitəsi üzrə daxilolmalar 487,0 milyon manat təşkil edərək proqnozdan 2,0 milyon manat və ya 0,4 faiz, İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti üzrə daxilolmalar 4,9 milyon manat təşkil edərək proqnozdan 0,2 milyon manat və ya 4,4 faiz, sair daxilolmalar 31,0 milyon manat təşkil edərək proqnozdan 3,1 milyon manat və ya 11,2 faiz çox, Dövlət Neft Fondundan transfert isə 1 070,0 milyon manat təşkil edərək proqnoza qarşı 100 faiz icra edilib.

Eyni zamanda, dövlət büdcəsindən maliyyələşən təşkilatların ödənişli xidmətlərindən daxilolmalar 64,1 milyon manat təşkil edərək proqnoza qarşı 73,1 faiz icra olunub.

Bundan əlavə, yanvar ayında dövlət büdcəsinin xərcləri 1 500,0 milyon manat proqnoza qarşı 1 437,6 milyon manat məbləğində icra edilib ki, bu da 95,8 faiz təşkil edir.

Məlumata görə, 2026-cı ilin yanvar ayı ərzində icmal büdcənin gəlirləri 4 411,9 milyon manat, xərcləri isə 1 717,5 milyon manat məbləğində icra edilib.

06_27 IYUI-QARA.qxd 2/12/2026 10:39 PM Page 9





## Milli Məclisdə rəqəmsallaşma ilə bağlı komitə yaradıla bilər? - Açıqlama

***Ötən gün Prezident İlham Əliyevin sədrliyi ilə "Azərbaycanın yeni rəqəmsal arxitekturası" adlı vahid fəaliyyət planına həsr olunmuş müşavirə keçirilib. Dövlət başçısı müşavirədə bir sıra tapşırıqlar verib. Bunlardan biri hər bir dövlət qurumunda, ilk növbədə, nazirliklərdə rəqəmsallaşma, süni intellekt, kibertəhlükəsizlik üzrə bir müavinin ayrılması və ya yeni ştat vahidinin yaradılması ilə bağlıdır.***

Müasir dövrdə bu sahənin əhəmiyyətini nəzərə alsaq, Milli Məclisdə rəqəmsallaşma və ya texnologiya ilə bağlı komitə yaradıla bilər?

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü, deputat Vüqar Bayramov "Unikal"a açıqlamasında bildirib ki, rəqəmsallaşma və süni intellekt bu gün Azərbaycanda həyata keçirilən iqtisadi siyasətin əsas hədəflərindəndir.

Onun sözlərinə görə, rəqəmsal iqtisadiyyatın ümumi iqtisadiyyatda payının artırılması, xüsusilə ixracatda rəqəmsal sektorun payının çoxaldılması prioritetlər siyahısındadır: "Bu, daha çox innovativ məhsulların ixracatına imkan yaradа bilər. Milli Məclisdə daimi olaraq rəqəmsallaşma, texnologiya ilə bağlı qanun layihələrinin müzakirəsi və bu istiqamətdə qanun layihələrinin hazırlanması və qəbulu həyata keçirilib. Milli Məclis öz qanunverici fəaliyyəti ilə Azərbaycanda rəqəmsallaşma və süni intellektin inkişafına dəstək olan qurumlardan biridir. Konkret olaraq instutisional dəyişikliklə bağlı bu istiqamətdə müzakirələr aparıldıqdan sonra bununla bağlı qərarın verilməsi mümkün ola bilər. Hazırda belə komitə fəaliyyət göstərməsə də, Milli Məclis rəqəmsallaşma, rəqəmsal iqtisadiyyat, o cümlədə süni intellektlə bağlı məsələlərin inkişafına qanunvericiliyin təkmilləşdirilməsi yolu ilə dəstək olur. Bu dəstək növbəti dövrlərdə də davam etdiriləcək.

Təmsil olunduğum İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində rəqəmsal iqtisadiyyatın inkişafı ilə bağlı son illər xeyli sayda qanunvericilik aktlarının qəbul edilməsi həyata keçirilib. Bu ondan xəbər verir ki, Milli Məclis bu istiqamətdə aktiv və fəal qurumlardan biridir. Sözsüz ki, instutisional dəyişiklik Milli Məclis, eyni zamanda ölkə rəhbərliyi tərəfindən müzakirə edilən və mövcud prioritetlərə uyğun olaraq qəbul edilən qərarlardır".

***Anar Kəlbiyev***

## Daha bir dövlət qurumuna birbaşa şikayət etmək olacaq

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin 50 nömrəli Qərarı ilə təsdiq edilmiş "Dövlət orqanlarında çağrı mərkəzlərinin fəaliyyətinin təşkili Qaydaları"na uyğun olaraq, vətəndaşların müraciətlərinə baxılması işinin səmərəli təşkili, operativ cavablandırılması, göstərilən xidmətlərin effektivliyinin artırılması məqsədilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Çağrı mərkəzi yaradılıb.***

Bu barədə "Unikal"a Dini Qurumlarla İş üzrə Dövlət Komitəsindən məlumat verilib.

Bildirilib ki, bu yeni xidmət vasitəsilə vətəndaşlar Komitənin fəaliyyəti ilə bağlı müxtəlif suallara cavab ala, eləcə də şikayət və təkliflərini ünvanlaya bilərlər.

Vətəndaşlar müvafiq məsələlərlə bağlı şəhər və mobil telefonlarından birbaşa "8160" nömrəsinə zəng edərək əlaqə yaradа bilərlər.

Qeyd edək ki, Çağrı Mərkəzi iş günləri saat 09:00-dan 18:00-dək fəaliyyət göstərir.

# Monopolistlərin "pensiya cibgirliyi"

## Qiymətlərdəki süni bahalaşma maaşlardakı, pensiyalardakı artımları necə "yeyir"? - İlginc təfərrüatlar!



***Əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Rəşad Mustafayev media nümayəndələri üçün keçirilən brifinqdə bildirib ki, yeni artımla orta aylıq pensiya və yaşa görə orta aylıq pensiya müvafiq olaraq 593 manata və 632 manata çatıb.***

Nazir müavininin sözlərinə görə, 2018-2025-ci illərdə orta aylıq pensiya 208 manatdan 543 manata, yaşa görə orta aylıq pensiya 234 manatdan 578 manata çatıb.

"Yeni artımla orta aylıq pensiya və yaşa görə orta aylıq pensiya müvafiq olaraq 593 manata və 632 manata çatır. Bu da 2018-ci ilə nisbətən orta aylıq pensiyada 2,8 dəfə, yaşa görə orta aylıq pensiyada 2,7 dəfə artıma nail olunması deməkdir", - deyə o qeyd edib.

"Azpolitika"nın araşdırmasına görə isə son 15 il ərzində - 2011-ci ilin yanvarından 2026-cı ilin yanvarınadək Azərbaycanda əsas ərzaq məhsullarının demək olar ki, hamısında qiymət artımı qeydə alınıb. Hesablamalar göstərib ki, eyni dövrdə əsas ərzaq məhsullarının böyük əksəriyyətinin qiyməti 2-4 dəfə, bəzi məhsulların - xüsusilə kərə yağı, un məmulatları və çərəzlərin qiyməti isə 3-4 dəfə artıb. Məsələn, kərə yağının qiyməti 15 ildə 3,7 dəfə, un və makaron məhsulları 3 dəfədən artıq bahalaşıb.

Və ya: sümüklü mal ətinin 1 kiloqramı 2011-ci ildə 7 manat olduğu halda, 2026-cı ildə 16,5 manata yüksəlib - 2,4 dəfə artıb;

- Sümüklü qoyun əti 8 manatdan 18,8 manata qalxıb - 2,3 dəfə bahalaşıb;
- Toyuq əti isə 4 manatdan 6,15 manata yüksəlib - 54 faiz artım var.

Yaxud:

- Kərə yağı (ən çox bahalaşan məhsul) 6,30 manatdan 23,30 manata qalxıb - 3,7 dəfə artım;
- Qatıq 1,50 manatdan 2,85 manata yüksəlib - 90 faiz artım;
- Sterilizə olunmuş süd 1,50 manatdan 3 manata qalxıb - 2 dəfə bahalaşıb;
- Yumurtanın 1 ədədi 0,17 manatdan 0,21 manata qalxıb - 24 faiz artım və s. və i.a.

Bir sözlə, 2011-ci ildən bu yana pensiyalar nominal olaraq 5 dəfə artsa da, gündəlik istehlak səbətindəki xərclərin sürətli artımı pensiyaçıların real alıcılıq qabiliyyətini ciddi şəkildə məhdudlaşdırıb. "Azpolitika"nın araşdırmasından: "Sadə müqayisə üçün 2011-ci ildə pensiyaçıların gündəlik istehlak etdiyi əsas ərzaq məhsullarından ibarət şərti "ərzaq səbəti"ni götürək. Məsələn, 1 kiloqram un, 1 kiloqram sümüklü mal əti, 1 litr süd, 100 qram çay, 1 kiloqram şəkər tozu və 1 kiloqram kartofdan ibarət səbətin dəyəri 2011-ci ildə təxminən 13-14 manat təşkil edirdisə, 2026-cı ilin yanvarına gəldikdə eyni məhsullardan ibarət səbətin qiyməti 30 manata yaxınlaşır.

Beləliklə, pensiyalar 15 il ərzində nominal olaraq 5 dəfədən çox artırılsa da, qiymətlərin yüksəlməsi - ərzaq və xidmət inflyasiyası bunun həyat səviyyəsinə təsirini neytrallaşdırıb".

Yuxarıdakı rəqəmlərdən bir məqam da aydın olur: Azərbaycan iqtisadiyyatının "qara yarası" olan inhisarçılıq faktiki olaraq vətəndaşın pensiyasına qənim kəsilib!

Məlumdur ki, ölkədəki qiymət artımları bir çox hallarda süni xarakter daşıyır və monopolist maraqlarından qaynaqlanır. Sadə bir misal dediklərimizi təsdiqləyir. Dünya bazarlarında hər hansı bir ərzaq məhsulunun qiyməti qalxdıqda, təbii ki, eyni məhsulun Azərbaycan bazarında da bahalaşması müşahidə olunur. Lakin bir müddət sonra həmin məhsul dünya bazarında ucuzlaşınca nədənsə bizdə qiymət aşağı düşmür. Hətta bahalaşma tendensiyası davam edir. Bu da onu göstərir ki, monopolist mövqelərə malik istehsalçı, yaxud idxalçı şirkətlər bu mövqelərindən istifadə edib ölkədə qiymət diqtə etməklə, daha da konkret desək, soyğunçuluqla məşğuldurlar.

Bənzər proses hər dəfə ölkədə maaş, təqaüd, pensiya artımları ilə bağlı da müşahidə olunur. Aydın görünür ki, inhisarçılar hər belə artımı fürsətə çevirir və mövcud qiymətlərə öz maraqlarına uyğun şəkildə "əl gəzdirirlər". Yəni, sözügedən artımlar az qala vətəndaşın cibinə girmədən monopolistlər bahalaşmaya əl atırlar. Beləcə, onsuz da sıravi vətəndaşlar üçün elə də yüksək olmayan artımlar onların yox, inhisarçıların cibinə gedir.

Nəticə etibarilə isə maaşların, pensiyaların yüksəldilməsi əhalinin sosial rifahının yaxşılaşdırılmasındakı rolunu əhəmiyyətli şəkildə itirir. Bir az da konkretləşdirsək, maaş, pensiya artımlarının adı vətəndaşların, dadı isə inhisarçıların olur. Beləcə, monopolistlər bir yandan "qaz vurub qazan doldurarkən", o biri yandan süni qiymət artımları ilə dövlətin sosial siyasətini sabotaj edirlər.

***Sənan Mirzə***

# Müəllimin güllələndiyi məşhur liseyin gizlinləri...

## İllik təhsil haqqının 10 min manatdan başladığı “İdrak” liseyinin “dosyesi”ndə nələr var?

***Məlum olduğu kimi, bu il fevralın 6-da səhər saatlarında Bakıda yerləşən “İdrak” Liseyində bədbəxt bir hadisə yaşanıb. Belə ki, məktəbin 10-cu sinif şagirdi Ə.Ş. insident törədib. O, atasına məxsus ov silahı ilə məktəbə gələrək orada riyaziyyat müəllimi işləyən 1997-ci il təvəllüdlü Şəhla Kamilovanı güllələyib.***

Polis əməkdaşları tərəfindən Ə.Ş saxlanılıb. Ondan ov silahı götürülüb. Xəstəxanaya yerləşdirilən müəllimin həyatını xilas etmək mümkün olub. Ə.Ş. isə həbs edilib.

Məlumat üçün qeyd edək ki, İdrak Liseyi Azərbaycanda fəaliyyət göstərən tanınmış özəl təhsil müəssisələrindən biridir. Bu lisey 2008-ci ildə Sumqayıt şəhərində yaradılıb. 2014-cü ildən etibarən isə Bakıda fəaliyyətə başlayıb. Liseyin təsisçisi tanınmış alim, riyaziyyatçı, pedaqoji elmlər doktoru Mönsüm Alışovdur.

Təhsil müəssisəsinin idarəçiliyində onun ailə üzvləri də iştirak edir.

Lisey şagirdlərə ibtidai, ümumi orta və tam orta təhsil pillələri üzrə xidmət göstərir, tədris Azərbaycan, rus və ingilis dillərində aparılır, ingilis bölməsində isə beynəlxalq proqramlardan istifadə olunur.

Liseydə 3 təhsil pilləsi var: ibtidai (I-IV siniflər), ümumi orta (V-IX siniflər), tam orta (X-XI siniflər).

Təhsil haqqına gəlincə, İdrak Liseyində illik təhsil haqqı sinif səviyyəsinə görə dəyişir:

- İbtidai siniflər (I-IV): təxminən 10 000 - 12 500 AZN;
- Orta və tam orta siniflər (V-XI): təxminən 10 500 - 16 500 AZN.

Liseylə bağlı daha bir ilginc məqamı isə “Yeni Sabah” saytı açıqlayıb. Məlum olub ki, əslində, bu tədris mərkəzində əvvəllər də oxşar kriminal hadisələr baş verib. Məsələn, təxminən 2 il əvvəl “İdrak”da şagirdlər bir-birini bıçaqlayıb. Lakin lisey rəhbərliyi məsələni gizlədib, ictimailəşməsinə imkan verməyib.

Bundan başqa, “İdrak”ın rəhbərliyi haqda da maraqlı məlumatlar var. Belə ki, liseyin təsisçisi Möhsüm Alışov olsa da, hüquqi olaraq “İdrak”ın direktoru onun gəlini Natavan Alışovadır. İddiaya görə, məktəbdə əsas söz sahibi isə M.Alışovun nazirliklərin birində yüksək vəzifə tutan oğlu İdris Alışovdur. İdris Alışovun qardaşının fəaliyyəti ilə bağlı da iddialar dolaşır. Qarşı tərəf bütün bu deyilənlərə hələ də nə təsdiq, nə də təkizb edib.

BAKU.WS-in əldə etdiyi məlumata görə isə adıçəkilən liseyin yerləşdiyi binanın sahibi Ruslan Eyyubovdur.

Xatırladaq ki, Ruslan Eyyubov ötən ilin sonunda 5 milyon manatlıq siqaret qaçaqmalçılığı ilə bağlı aparılan istintaq çərçivəsində saxlanılaraq həbs olunub. Ruslan Eyyubov Dövlət Gömrük Komitəsinin Dəniz Nəqliyyatı və Enerji Resursları Baş Gömrük İdarəsinin bir neçə gün əvvəl vəzifəsindən azad edilən rəisi general-mayor Həsən Eyyubovun qardaşıdır.

Onlar Prezidentin Mühafizə Xidmətinin keçmiş rəisi general-polkovnik Bəylər Eyyubovun qardaşı oğlanlarıdır. İndi saxlanılan Eyyubov həm də kimya sənayesi biznesi ilə məşğuldur, bu sahədə tanınan ”NB Qrup” şirkətinin rəhbəridir.

“İdrak” Liseyinin “dosyesindəki” ilginc məqamlar bununla yekunlaşmır. Yuxarıda da qeyd etdiyimiz kimi, bu liseyin illik təhsil haqqı ibtidai siniflər üçün 10,000-12,500 manat, orta və yuxarı siniflər üçün isə 10,500-16,500 manat arasında dəyişən bir özəl məktəbdir. Və öz şagirdlərinə təhlükəsizlik zəmanəti verir! Lakin təhsilhaqqı müqabilində həmin zəmanətin quruca vəddən başqa bir şey olmadığı fevralın 6-da baş verən insidentlə təsdiqini tapdı. Bu, fantastik məbləğdə təhsilhaqlarının ödənildiyi özəl məktəblərdəki ödənişlərlə yalnız təhsilin keyfiyyəti deyil, digər parametrlər baxımından da dərin uçurum olduğunun göstəricisidir.

Eyni zamanda uzun illərdən bəridir özəl məktəblər üzərində nəzarətin gücləndirilməsinə yönəlik ictimai çağırışların əsassız olmadığı da bir daha ortaya çıxır. Əməkdar müəllim, sabiq deputat Sona Əliyevanın dediyi kimi, Azərbaycanda özəl ümumtəhsil məktəbləri qiymət siyasətini əsasən özləri müəyyən edir. Lakin: “Nəzərə almaq lazımdır ki, yüksək qiymət avtomatik olaraq yüksək keyfiyyət demək deyil” (Globalinfo). Ekspert haqlı olaraq vurğulayıb ki, əgər valideyn 16-17 min manat ödəyirsə, qarşılığında həm təhsil keyfiyyəti, həm psixoloji mühit, həm də şagirdin təhlükəsizliyi ilə bağlı ciddi təminatlar tələb edir: “Əks halda, bu artıq təhsil yox, sadəcə kommersiya xidmətinə çevrilir. Hesab edirəm ki, dövlətin aidiyyəti qurumları özəl məktəblərin qiymətini birbaşa müəyyən etməsə də, şəffaflıq və hesabatlılıq mexanizmlərini gücləndirməlidir. Məsələn, məktəblər ödənişin niyə bu qədər yüksək olmasını əsaslandırmalıdır. Valideyn bilməlidir ki, o, hansı xidmətlər üçün ödəniş edir, təhsil haqqı ilə təhsil keyfiyyəti arasında real uyğunluq varmı, təhsil hansı nəticələrə yönəlib və sair... Qısası, təhsil kommersiya sahəsi olsa da, eyni zamanda ictimai məsuliyyət daşıyan bir sahədir və qiymət-keyfiyyət balansına ciddi şəkildə yenidən baxılmasına ehtiyac var”.

Elə ictimaiyyətdə də “İdrak” Liseyindəki məlum insidentdən sonra mütləq əksəriyyət üçün qiymətləri əlçatmaz olan özəl məktəblərlə bağlı aidiyyatı qurumların qanunvericilik çərçivəsində müəyyən nizamlayıcı, tənzimləyici addımlar atmasına, hüquqi nəzarət mexanizminin gücləndirilməsinə dair gözləntilər yaranıb. Əks halda kimlərinsə sahibi, rəhbəri olduğu bu cür məktəblərə sadəcə kommersiya nöqteyi-nəzərindən yanaşması sabah-birigün başqa xoşagəlməz nəticələr də doğura bilər...




*Sənan Mirzə*



## DİM burada təhsil alan 258 şəxs üçün imtahan keçirəcək

***Dövlət İmtahan Mərkəzi (DİM) fevralın 15-də Bakı və Naxçıvan şəhərlərində doktorantura, dissertantura və adyunkturada təhsil alan və ya təhsilini bitirmiş iddiaçıların xarici dillər üzrə fəlsəfə doktoru imtahanı keçirəcək.***

DİM-dən ”Unikal”a verilən məlumata görə, imtahanda 258 nəfərin iştirakı nəzərdə tutulur.

İmtahan saat 11:00-da başlanır. İmtahanın başlanmasına 15 dəqiqə qalmış saat 10:45-də buraxılış rejimi başa çatır. Bundan sonra gələn iştirakçılar imtahan binasına buraxılmır.

İddiaçılar imtahana şəxsiyyəti təsdiq edən sənədin əslini və ”İmtahana buraxılış vərəqəsi”ni özləri ilə gətirməlidirlər. İmtahan binasına buraxılış vərəqəsində qeyd olunan vaxtda gəlmək lazımdır.

İmtahan müdd?tinin ilk 1 saat 30 d?qiq?si test tapşırıqlarının cavablandırılmasına, son 1 saat 30 dəqiqəsi is? yazılı tapşırıqların yerin? yetirilm?sin? (esse və vizual m?lumatın yazılı t?sviri üçün) ayrılır.

İmtahanın keçirilməsi üçün ümumilikdə 2 imtahan binası, 3 zal admini, 2 ümumi imtahan rəhbəri, 21 nəzarətçi, 3 buraxılış rejimi əməkdaşı (mühafizə) ayrılıb.

Qeyd edək ki, imtahanlar elektron formada kompüterlər vasitəsilə keçiriləcək. Azərbaycan dili üzrə fəlsəfə doktoru imtahanı isə ənənəvi qaydada kağız daşıyıcılar vasitəsilə keçiriləcək.

Həmin gün keçirilən imtahan dinləyib-anlama, oxuyub-anlama, dildən istifadə (leksik-qrammatik tapşırıqlar) və yazı bloklarından ibarət olacaq. Bu imtahanda iştirak etməyən iddiaçılar danışıq bloku üzrə imtahana buraxılmırlar. Danışıq bloku üzrə imtahan fevralın 19-da keçiriləcək. Danışıq bloku üzrə imtahanda iştirak etməyən iddiaçılar ilk 4 blok üzrə 30 bal və daha yüksək nəticə göstərsələr belə, şəhadətnamə ilə təmin olunmayacaqlar.

Həm xarici dil üzrə fəlsəfə doktoru imtahanlarında, həm də əcnəbi və vətəndaşlığı olmayan iddiaçılar üçün Azərbaycan dili üzrə fəlsəfə doktoru imtahanında namizədlərin və iddiaçıların hər bir test tapşırığına düzgün cavabı bir balla qiymətləndirilir, səhv cavablar düzgün cavabların nəticəsinə təsir göstərmir. Yazı və danışıq bloku üzrə tapşırıqlar 10 ballıq şkala üzrə qiymətləndirilir. Beləliklə, imtahanda toplanıla biləcək maksimal bal 50-yə bərabərdir. Dinləyib-anlama, oxuyub-anlama, dildən istifadə (leksik-qrammatik tapşırıqlar), yazı və danışıq blokları üzrə balların minimum 20 faizini, ümumilikdə isə xarici dil üzrə fəlsəfə doktoru imtahanından azı 30 bal toplamış iddiaçılar və əcnəbilər üçün Azərbaycan dili üzrə fəlsəfə doktoru imtahanından azı 25 bal toplamış iddiaçılar imtahanın nəticəsinə qoyulan tələbi ödəmiş hesab edilirlər.

Qeyd 3. Əcnəbi və vətəndaşlığı olmayan iddiaçıların Azərbaycan dili üzrə fəlsəfə doktoru və danışıq bloku imtahanı fevralın 16-da keçiriləcək.



# Magistraturaya qəbul imtahanı keçiriləcək

***Dövlət İmtahan Mərkəzi 15 fevral 2026-cı il tarixində ali təhsil müəssisələrinin magistraturalarına qəbul imtahanı (I cəhd) keçirəcək.***

DİM-dən "Unikal"a verilən məlumata görə, imtahan Bakı, Sumqayıt, Abşeron, Naxçıvan, Gəncə, Mingəçevir və Lənkəranda, ümumilikdə 88 binada təşkil olunacaq. Bakalavrların imtahan verəcəyi yer onların "Şəxsi kabinet"ində qeyd etdiyi faktiki yaşadığı məntəqəyə uyğun müəyyən olunur.

İmtahan bütün binalarda eyni vaxtda - saat 11:00-da başlanır. İmtahanın başlanmasına 15 dəqiqə qalmış saat 10:45-də buraxılış rejimi başa çatır. Bundan sonra gələn iştirakçılar imtahan binasına buraxılmırlar.

Bildiyiniz kimi, imtahanda bakalavrların xarici dil üzrə dinləyib-anlama bacarıqları da yoxlanılır. İmtahan dinləmə mətninin səsləndirilməsi ilə başlanır. Mətnin səsləndirilməsinə hazırlıq və binada sakitliyin təmin olunması ilə əlaqədar imtahanın başlanmasına 15 dəqiqə qalmış hər kəs zalda olmalıdır.

İmtahanın müddəti 3 saat 30 dəqiqədir. İmtahan başlanandan 3 saat sonra test tapşırıqlarının cavablandırılması üçün ayrılan vaxt başa çatır və cavab kartları zal n?zar?tçisi t?r?find?n yığılır. Bundan sonra iştirakçılara xarici dil fənni üzrə yazı işi (esse) v?r?ql?ri paylanılır. Esselərin yazılmasına 30 dəqiqə vaxt verilir.

İmtahan iştirakçılarının nəzərinə çatdırırıq ki, cavab kartındakı m?lumatlar optik qurğu vasit?sil? oxunur. Ona görə də optik qurğuların tələblərinə əsasən, cavab kartını qara v? ya tünd göy r?ngd? yazan mür?kk?b axıtmayan diyirc?kli q?l?ml?, yaxud tünd rəngdə yazan sad? karandaşla doldurmaq lazımdır. Cavablar üçün nəzərdə tutulmuş dairələrin içi göstərilən növ qələmlərlə və ya karandaşla tam qaralanmalıdır. Təlimata uyğun olmayan formada qeyd olunmuş cavablar, o cümlədən cavabın optik qurğu tərəfindən səhv kimi nəzərə alınması ilə nəticələnən düzəlişlərə (məsələn qapalı sualda iki dairənin qaralanması və s.) baxılmayacaq. Bununla bağlı tövsiyə olunur ki, cavab kartında cavabları tam əmin olduqdan sonra qeyd edin və ya cavab kartında imtahan bitənədək hər hansı düzəliş etmək imkanının olması üçün dairələri karandaşla qaralayın. Cavab kartını zədələmək v? cırmaq olmaz. İmtahan nəticələri ilə əlaqədar apellyasiya müraciətlərinə baxılarkən göstərilən hallarla bağlı hər hansı müraciət qəbul edilməyəcək.

İmtahan iştirakçıları "Yaddaş kitabçası" ilə buradan tanış ola bilərlər.

Məlumat üçün qeyd edək ki, ərizələrin qəbulu internet vasitəsilə yanvarın 14?dən 26-dək aparılıb. İmtahanda iştirak etmək üçün 22780 bakalavr ərizə təqdim edib. Onlardan 20790 nəfər Azərbaycan bölməsi, 1990 nəfər rus bölməsi üzrə imtahan verəcək. Bakalavrlardan 15391-i cari ilin, 7389-u isə əvvəlki illərin məzunlarıdır, 47 nəfər xarici ölkə vətəndaşıdır.

Qəbul imtahanı Bakıda 64, Sumqayıtda 6, Abşeronda 4, Gəncədə 6, Naxçıvanda 2, Mingəçevirdə 4, Lənkəranda 2 binada təşkil olunacaq. Bakıda 16499, Naxçıvanda 542, Gəncədə 1533, Sumqayıtda 1712, Abşeronda 1235, Mingəçevirdə 828, Lənkəranda 431 bakalavrın imtahan verəcəyi gözlənilir. İmtahanın idarə olunmasına 88 ümumi rəhbər, 248 imtahan rəhbəri, 2069 nəzarətçi, 297 buraxılış rejimi əməkdaşı (mühafizə) cəlb olunacaq.

İmtahanda iştirak etmək üçün qeydiyyatdan keçmiş bakalavrlar fevralın 5-dən etibarən DİM-in internet saytına daxil olub "Şəxsi kabinet"inin istifadəçi adı və parolundan istifadə etməklə "İmtahana buraxılış vərəqəsi"ni çap edirlər. Burada iştirakçının imtahan verəcəyi şəhər, bina və digər məlumatlar qeyd olunur.

# Dövlət Turizm Agentliyinin 230 milyon manatlıq müəmması

## Azərbaycana gələn turistlərin sayında azalma, əvəzində isə Gürcüstana axın davam edir - Sensasiyalı rəqəmlər

***Ötən il ölkəmizə gələn turistlərin sayında azalma müşahidə edilib. Belə ki, 2025-ci ildə Azərbaycana dünyanın 189 ölkəsindən 2570,2 min və ya əvvəlki illə müqayisədə 2,1% az əcnəbi və vətəndaşlığı olmayan şəxs gəlib.***

Hazırda ölkəmizdə turizmin qış turizm dövrüdür. Yalnız yay deyil, qış turizmi dönəmində də ölkəyə turistlərin cəlb edilməsi xüsusi əhəmiyyət daşıyır. Bu səbəblə də bəzi regionlarımızda geniş imkanlar yaradılıb.

Maraqlıdır ki, hazırda qış turizmi ilə bağlı ölkəyə səfər edənlərin sayında çoxluq müşahidə edilirmi? Turizm mərkəzlərində qiymətlər necə dəyişir?

Mövzu ilə bağlı Bizim.Media-ya danışan turizm eksperti Ceyhun Aşurov bildirib ki, göstəricilər qaneedici səviyyədə deyil: "Hazırda qış turizmində 1 ayı geridə qoymuşuq. Görünən odur ki, keçən illə müqayisədə ciddi bir dəyişiklik yoxdur. Əslində Azərbaycanda yanvar-fevral ayı neçə illərdir ki, turizm mövsümündə aktiv dövr hesab olunmur.

Bununla belə, Şahdağ və Tufandağda yaradılan şərait buna imkan verir ki, qış turizmini sevən şəxslər bu imkanlardan istifadə edə bilsinlər. Lakin yenə də turistlərin sayı elə də çox deyil. Azərbaycan bazarı COVİD-19-dan sonra bərpa dövrünü yaşayır. Hələ ki, göstəricilərimiz qaneedici səviyyədə deyil.

Ötən ildən turistlərin sayında 2 faiz azalma olub. Turizm bazarındakı durğunluq qiymətlərin dinamikasına da öz təsirini göstərir. Bu durğunluğun fonunda ciddi dəyişiklik yoxdur. Təxminən ötən ilki ilə eyni qiymətlərə xidmətlər təklif olunur".

Bəzi ekspertlər isə Azərbaycana gələn turistlərin sayındakı azalma tendensiyasında Dövlət Turizm Agentliyinin məsuliyyətinə diqqət çəkirlər. Bildirirlər ki, bu qurum sözügedən tendensiya ilə bağlı daha çox xarici amilləri qabartmaqla həmin məsuliyyətdən yayınmağa çalışır. "Məsələn, Agentlik ötən ilin yanvar-oktyabr aylarında Azərbaycana gələn əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin 2024-cü ilin eyni dövrü ilə müqayisədə 1,7 % az olmasını iki əhəmiyyətli bazar üzrə müşahidə edilən geriləmə dinamikası ilə əlaqələndirməyə çalışmışdı. Qurumdan bildirilmişdi ki, 2024-cü ildə Azərbaycanın turizm sektoru üzrə Rusiya birinci, Hindistan isə üçüncü ən böyük turizm bazarı olub. Lakin 2024-cü ilin dekabr ayından sonra Rusiyadan hava nəqliyyatı ilə sərnişindaşıma fəaliyyətinin coğrafiyası kiçilib və intensivlik azalıb. Digər tərəfdən, 2025-ci ilin may ayında baş verən Hindistan-Pakistan münaqişəsindən sonra iyun ayından başlayaraq Hindistan bazarında kəskin geriləmə müşahidə olunub. Belə ki, iyun-oktyabr ayında Hindistandan turist səfərlərinin sayı əvvəlki ilin eyni dövrü ilə müqayisədə 2,9 dəfədən çox azalıb. Əlbəttə, bunlar obyektiv amillərdir və başadüşüləndir. Lakin Dövlət Turizm Agentliyinin vəzifəsi yalnız hər hansı neqativ statistika ilə bağlı diaqnoz qoymaqla, problemin səbəbini göstərməklə bitmir. Agentlik borcludur ki, həmin problemi aradan qaldırmaq üçün də ciddi işlər görsün" - deyə "Unikal"ın əməkdaşı ilə söhbətində adının çəkilməsini istəməyən turizm mütəxəssisi bildirib.

Onun sözlərinə görə, əgər biriki ölkədən turist gəlişinin azalması ölkə turizminin ümumi statistikasına bu qədər ciddi şəkildə mənfi təsir göstərirsə, adıçəkilən Agentliyin fəaliyyətinə tənqidi yanaşılması təbiidir: "Məsələn, sual olunmalıdır ki, bu qurum Azərbaycana turistlərin gəldiyi ölkələrin dairəsini genişləndirmək və balanslaşdırmaq istiqamətində nə qədər doğru addımlar atır? Əgər belə addımlar atılmış olsaydı, Rusiyadan, Hindistandan turis az gəlib deyə, Azərbaycanın turizm statistikasında kəskin azalma da baş verməzdi".

Həmsöhbətimiz xüsusən qış turizm mövsümündə ənənəvi xarakter alan azalmanın anlaşılmaz olduğunu deyib: "Halbuki Şahdağda, Tufandağda qış turizmi baxımından kifayət qədər yaxşı imkanlar, şərait mövcuddur. Əgər bu potensialdan hələ də lazımi qədər istifadə olunmursa, Dövlət Turizm Agentliyi oturub yaxşı-yaxşı düşünməlidir ki, nəyi səhv edirlər? Bu günlərdə məlum oldu ki, ötən il ərzində Azərbaycandan Gürcüstana turist axını kəskin artıb. Qonşu ölkənin İqtisadiyyat və Davamlı İnkişaf Nazirliyinin açıqlamasına görə, rəsmi statistikada Azərbaycandan Gürcüstana səfərlərin xüsusi paya malik olduğu vurğulanır. Belə ki, 2025-ci ildə Azərbaycandan gələn turistlər hesabına əldə olunan gəlirlər 32,5 faiz artaraq 223,3 milyon dollara yüksəlib. Gəlin razılaşaq ki, bu, kifayət qədər yüksək rəqəmdir. O qədər pul ölkəmizdə də qala bilərdi. Üstəlik, Azərbaycanla Gürcüstanın quru sərhədlərinin bağlı olduğu bir dövrdə... Əgər belə bir şəraitdə də vətəndaşlarımız qonşu ölkəyə tətilə, istirahətə, gəzintiyə gedirsə, deməli, bizim Dövlət Turizm Agentliyinin fəaliyyətində, həmçinin məsul olduğu sahəyə yanaşmasında ciddi qüsurlar, boşluqlar var".



Mütəxəssisin dediklərinə nə isə əlavə etmək istəməzdik. Sadəcə onu bildirək ki, adıçəkilən Agentlik hər il Azərbaycanın turizm imkanlarının tanıdılmasına milyonlarla manat xərcləyir, bunun müqabilində isə ölkəyə turist axını azalır, ya da əhəmiyyətli şəkildə müsbət dinamika nümayiş etdirmir, üstəlik, azərbaycanlıların özləri belə istirahət, tətil üçün xaricin yolunu tutursa, deməli, ortada ciddi bir problem var, həm də Dövlət Turizm Agentliyinin öhdəsindən gələ bilmədiyi qədər ciddi bir problem!

***Toğrul Əliyev***

## 5.3.13. informasiya və kommunikasiya texnologiyalarının inkişaf etdirilməsi

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Süni intellekt-dövlət idarəçiliyinin yeni fəlsəfəsi!

## Osman Gündüz: "Rəqəmsal transformasiya artıq konsepsiya və mövcud inkişaf mərhələsindən çıxaraq daha yüksək və sistemli mərhələyə keçməlidir"

***Prezident İlham Əliyev "Azərbaycanın yeni rəqəmsal arxitekturası" adlı vahid fəaliyyət planına həsr olunmuş müşavirədə süni intellektlə bağlı bir sıra mühüm tapşırıq və tövsiyələr verib. Bu tapşırıqlar ölkəmizin rəqəmsal transformasiya prosesini daha da sürətləndirmək, dövlət idarəçiliyində süni intellekt texnologiyalarından geniş istifadəni təmin etmək məqsədi daşıyır. İlham Əliyev vurğulayıb ki, süni intellekt texnologiyalarının tətbiqi dövlət qurumlarında geniş vüsət almalıdır. Çünki, bu dünya təcrübəsində yaxşı nəticələr verir.***

Belə ki, inkişaf etmiş ölkələrdə "süni intellekt agentləri" dövlət işçilərinin gündəlik fəaliyyətində yardımçı kimi istifadə olunur və bu təcrübə Azərbaycan üçün də prioritet olmalıdır. Dövlət başçısı süni intellektin qərar qəbuletmə prosesində köməkçi rolunu xüsusi qeyd edib. Vurğulayıb ki, bu texnologiyalar idarəetmədə daha effektiv rəqəmsal xidmətlərin hazırlanmasına və proseslərin optimallaşdırılmasına imkan verir. İlham Əliyev bütün dövlət qurumlarında, xüsusilə nazirliklərdə rəqəmsallaşma, süni intellekt və kibertəhlükəsizlik üzrə müavin vəzifəsinin ayrılmasını tapşırıb. O, bildirib ki, bu vəzifə yeni ştat kimi yaradıla bilər və ya mövcud müavinlərdən birinə həvalə edilə bilər. Əsas odur ki, bu sahə bütün qurumlarda prioritet olsun və əlaqələndirmə yaxşılaşsın. Dövlət başçısı kadr hazırlığı məsələsini də önə çəkib. Bildirib ki, gələcəkdə süni intellekt mütəxəssislərinin hazırlanması üçün təhsil sistemində xüsusi diqqətin artırılması, həm ali məktəblərdə, həm də orta məktəblərdə müvafiq biliklərin təşviq olunması vacibdir.

Prezident qeyd edib ki, özəl sektorda da süni intellekt layihələrinin və yeniliklərin tətbiqi üçün dəstək mexanizmləri işə salınmalıdır, bu da startap mühitinin inkişafına təkan verəcəkdir.

Kibertəhlükəsizlik sahəsi də müşavirədə önəmli məsələlərdən olub və süni intellektin tətbiqi ilə paralel olaraq bu sahədə təhlükəsizlik



hədəflərinin müəyyənləşdirilməsi və möhkəmləndirilməsinin vacibliyi vurğulanıb.

İKT üzrə ekspert, Azərbaycan İnternet Forumunun rəhbəri Osman Gündüz "Unikal"qəzetinə müsahibəsində bildirib ki, Prezident İlham Əliyevin sədrliyilə "Azərbaycanın yeni rəqəmsal arxitekturası" mövzusunda müşavirənin keçirilməsi mühüm addımdır.

"Bu o deməkdir ki, rəqəmsal transformasiya, data infrastrukturu və süni intellekt məsələləri artıq birbaşa dövlət başçısının nəzarətinə keçib. Eyni zamanda bu sahədə vahid yanaşma və koordinasiyanın prioritet elan edildiyini də demək olar. Son dövrlər hiss olunurdu ki, bu sektorda koordinasiya ilə bağlı , vahid yanaşma ilə bağlı problemlər mövcuddur, müəyyən irəliləyişlər olsa da, hələ də resurslardan səpələnmiş şəkildə istifadə olunur. Halbuki reallıqda süni intellekt, dövlət xidmətlərinin rəqəmsallaşması, superkompüter mərkəzləri, fiber-optik bağlantılar və enerji təminatı, sektorda biznes mühiti və tənzimləmə ciddi kordinasiya tələb edir. Koordinasiya olmadan texnoloji sıçrayış mümkün deyil. Koordinasiya olduqda isə resursların optimallaşdırılması və sürətli icra təmin olunur.

Fikrimcə, bu müşavirə həm də açıq bir mesajdır. Rəqəmsal transformasiya artıq konsepsiya və mövcud inkişaf mərhələsindən çıxaraq daha yüksək və sistemli mərhələyə keçməlidir", - deyə Osman Gündüz bildirib.

Ekspert vurğulayıb ki, son zamanlar məğlub ölkə olan Ermənistanda texnoloji sferada baş verənlər də güman ki, diqqətdən yayınmayıb: "Ermənistanın nə etməsinə yox, bizim nə edə biləcəyimizə fokuslanmaq doğru yanaşmadır. Mövzunun Prezident səviyyəsində nəzarətə götürülməsi isə bu istiqamətin uzunmüddətli milli prioritet olacağını göstərir. Belə yanaşma sektorda real və sürətli inkişaf üçün ciddi imkanlar yarada bilər. İnanıram ki, "Azərbaycanın yeni rəqəmsal arxitekturası" üzrə ciddi bir vahid fəaliyyət planı ortaya qoyulacaq".

Müsahibimiz bildirib ki, dövlət başçısının səsləndirdiyi tapşırıq əslində kadr dəyişikliyi yox, idarəetmə modelinin dəyişməsi deməkdir. Onun sözlərinə görə, Prezident müşavirədə nazirliklərdə rəqəmsal sektora cavabdeh olan bir müavinin olmasının vacibliyini vurğulayıb: "Nazirliklərdə və əsas dövlət qurumlarında rəqəmsallaşma, süni intellekt və kibertəhlükəsizlik üzrə xüsusi cavabdeh müavinlərin müəyyənləşdirilməsi bu sahələrin artıq texniki funksiya deyil, birbaşa rəhbərlik məsuliyyəti olduğunu göstərir. Prezident bu açıqlama ilə açıq mesaj verir. Rəqəmsal transformasiya sadəcə İT şöbələrinin və ya departamentlərin işi deyil. AI, data və kibertəhlükəsizlik qərarları idarə heyəti səviyyəsində qəbul olunmalı və konkret cavabdehi olmalıdır".

Ekspert deyir ki, AI layihələri struktur dəyişiklik tələb edir. "Əgər bu funksiyalar formal şəkildə, bu sahədən xəbərsiz olan mövcud müavinlərdən birinə tapşırılsa, real səlahiyyət və büdcə verilməsə, Prezidentin irəli sürdüyü model işləməyəcək. Amma düzgün icra olunsa, bu yanaşma dövlət idarəçiliyində AI tətbiqlərini sürətləndirə, mygov kimi vahid platformaya keçidi daha da sürətləndirə bilər. Bu tapşırıq göstərir ki, rəqəmsallaşma artıq ayrıca layihə yox, dövlət idarəçiliyinin yeni fəlsəfəsi kimi qəbul olunur", - deyə Osman Gündüz bildirib.

***Gülayə Mecid***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**



# XRİTDX-də İntellektual qiymətləndirmə Sistemi tətbiq edildi

***Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti (XRİTDX) tərəfindən informasiya təhlükəsizliyi sahəsində çalışan insan resurslarının inkişafı, peşəkar bilik və bacarıqların ölçülə bilən meyarlar əsasında qiymətləndirilməsi, habelə sahə üzrə institusional biliklərin sistemli şəkildə idarə olunması məqsədilə İnsan Resurslarının İntellektual Qiymətləndirmə Sistemi tətbiq edilib.***

Dövlət Xidmətindən "Unikal"a verilən məlumata görə, yeni Sistem dövlət qurumlarında informasiya təhlükəsizliyi və texnologiyaları istiqamətində fəaliyyət göstərən əməkdaşlarının peşəkar hazırlıq və bilik səviyyələrinin, peşə səriştələrinin və funksional bacarıqlarının müasir qiymətləndirmə alətləri vasitəsilə yoxlanılaraq qiymətləndirilməsini təmin edir. Qiymətləndirmə nəticələrinə əsasən sözügedən mütəxəssislərin müvafiq səriştə səviyyələrinin yüksəldilməsi üçün uyğun təlimlər keçirilərək nəticələrini əks etdirən sertifikatların təqdim olunması nəzərdə tutulur. Bu yanaşma sahə üzrə peşəkar standartların vahid platforma üzərindən formalaşdırılmasına və insan resurslarının keyfiyyət göstəricilərinin institusional səviyyədə ölçülməsinə xidmət edir.

Sistemin təqdimatında iştirak edən XRİTDX-nin rəisi general-leytenant İlqar Musayev platformanın funksional imkanları ilə tanış olub. Xidmət rəisi bildirib ki, təşəbbüsün əsas məqsədi qiymətləndirmə proseslərini yalnız rəqəmsal müstəviyə keçirmək deyil, dövlət qurumlarında informasiya təhlükəsizliyi və texnologiyaları sahəsində çalışan kadrların peşəkar səviyyəsinin obyektiv meyarlarla müəyyən edilməsi, səriştə boşluqlarının dəqiq identifikasiyası və inkişaf proseslərinin plan şəkildə idarə olunmasıdır. O vurğulayıb ki, Sistem sahə üzrə vahid yanaşmanın formalaşmasına və peşəkar intizamın gücləndirilməsinə mühüm töhfə verir.

Eyni zamanda Sistem qiymətləndirmə mexanizmlərinin vahid standartlar əsasında tənzimlənməsini, proseslərdə şəffaflığın və hesabatlılığın artırılmasını, eləcə də insan resurslarının idarə olunmasında rəqəmsal və analitik yanaşmanın tətbiqini təmin edən kompleks platforma kimi fəaliyyət göstərir.

Bu çərçivədə, Sistem vasitəsilə aparılan qiymətləndirmə nəticələrinə əsasən, dövlət qurumlarında müvafiq sahə üzrə fəaliyyət göstərən mütəxəssislərinin nəzəri və praktiki bilik və bacarıqlarının inkişaf etdirilməsi məqsədilə XRİTDX tərəfindən hədəfli təlim proqramlarının təşkili həyata keçirilir.

Qeyd edək ki, Sistem vasitəsilə ilkin mərhələdə Azərbaycan Respublikasının Energetika Nazirliyi və Azərbaycan Respublikasının Strateji Obyektlərinin Mühafizəsi Dövlət Agentliyinin müraciətlərinə əsasən həmin dövlət qurumlarının informasiya texnologiyaları sahəsində fəaliyyət göstərən əməkdaşlarının sahə üzrə bilik və bacarıq səviyyələri qiymətləndirilmişdir. Hazırda XRİTDX tərəfindən sözügedən qurumların sahə üzrə çalışan əməkdaşları üçün ikihəftəlik təlim proqramlarına başlanılmışdır. Təlimlər Bakı Ali Neft məktəbində yeni istifadəyə verilmiş "İnformasiya Təhlükəsizliyi Testləri" laboratoriyasında həyata keçirilir.

06_27 IYUl-QARA.qxd 2/12/2026 10:39 PM Page 13





## Milli Kitabxanada "Xalq artisti Bəhram Mansurov" adlı kitab sərgisi təqdim olunub

***12 fevral 2026-ci il tarixində Milli Kitabxanada klassik Azərbaycan muğamlarının qorunub saxlanılmasında və təbliğində böyük xidmətləri olan Mansurovlar sülaləsinin nümayəndəsi, görkəmli tarzən, Xalq artisti Bəhram Mansurovun anadan olmasının 115 illiyi münasibətilə Xalq artisti Bəhram Mansurov" adlı geniş ənənəvi kitab sərgisi istifadəçilərə təqdim olunub.***

Sərgidə muğamı qüsursuz səsləndirən, fitri istedada malik, mahir tarzən Bəhram Mansurovun qramplastinkalara köçürülmüş tar ifaları, Azərbaycan musiqi tarixindəki xidmətləri, sənətkarın yaradıcılıq yolu, incəsənət xadimlərinin xatirələri, bənzərsiz sənət dünyası, qoyduğu irs haqqında ədəbiyyatlar, dövri mətbuat materialları nümayiş olunur. Sərgi bir həftə davam edəcək.

Bəhram Məşədi Süleyman bəy oğlu Mansurov 1911-ci il fevral ayının 12-də Bakıda, İçərişəhərdə musiqiçi ailəsində anadan olub. İlk təhsilini mədrəsədə, sonra isə rus-tatar məktəbində alıb. Tar çalmaq sənətini atasından və əmisi Mansur Mansurovdan öyrənib.

O, 1929-cu ildən Azərbaycan Dövlət Şərq orkestrində, sonralar Azərbaycan Televiziya və Radiosunun Xalq çalğı alətləri orkestrində fəaliyyət göstərib, Azərbaycan Dövlət Filarmoniyasının solisti olub, C.Qaryağdıoğlu, S.Şuşinski, H.Sarabski, H.Rzayeva, Z.Adıgözəlov və d. görkəmli xanəndələri müşayiət edib.

1941-ci ildən Azərbaycan Dövlət Musiqi Məktəbində pedaqoji fəaliyyət göstərib. Görkəmli tarzən 54 il Opera və Balet Teatrında çalışıb, muğam operalarında xanəndələri müşayiət edib. Onun ifasında olan bütün muğamlar, dəraməd, diringə, təsnif və rənglər oğlu Eldar Mansurov tərəfindən nota salınıb.

Bəhram Mansurov ilk azərbaycanlı musiqiçidir ki, onun ifasında "Çahargah" və "Rast" muğamları nota alınıb, həmçinin "Bayatı-Şiraz", "Humayun", "Şur", "Bayatı-kürd", "Çahargah" ilk dəfə UNESCO-nun xətti ilə vallara və CD-lərə yazılıb, bütün dünyaya yayılıb.

1971-ci tarzən Bəhram Mansurova həsr olunmuş "Çalır Bəhram Mansurov" sənədli televiziya filmi çəkilib.

Bəhram Mansurov 1978-ci və 1983-cü illərdə Səmərqənddə keçirilən Beynəlxalq Muğam Simpoziumunda Azərbaycanı təmsil edib.

1956-cı ildə "Əməkdar artist", 1978-ci ildə isə "Xalq artisti" fəxri adına layiq görülüb.

Azərbaycan Respublikasının Prezident İlham Əliyevin Sərəncamı ilə 2011-ci ildə anadan olmasının 100 illiyi qeyd edilib.

Yaradıcılığı bu gün də tədqiq olunur, haqqında bir çox kitab, monoqrafiya və məqalələr çap olunur.


### ELAN

Hüquqi ünvanı: Ağsu rayonu Daşdəmirbəyli kəndində yerləşən və rayonun Ağarx, Ülgüc, Ağalarbəyli və Bozavand kəndlərində fəaliyyət göstərən.

Nazirliyin Ağsu rayon qeydiyyat şöbəsi tərəfindən 21.04.2009-cu il tarixdə Azərbaycan Respublikası Ədiliyyə Nazirliyinin 060009-Q2-0002 nömrəli şəhadətnaməsi itdiği üçün etibarsız sayılır.

Hüquqi ünvanı: Ağsu rayon Musabəyli kəndində və rayonun Qaraqoyunlu, Muradlı, Növcü, Çiyni və Sarvan kəndlərində fəaliyyət göstərən.

Nazirliyin Ağsu rayon qeydiyyat şöbəsi tərəfindən 05.01.2010-cu il tarixdə Azərbaycan Respublikası Ədiliyyə Nazirliyinin 060010-Q3-0006 nömrəli şəhadətnaməsi itdiği üçün etibarsız sayılır.


# 2025-ci ildə Kəlbəcərin iqtisadi və sosial inkişafının makroiqtisadi göstəriciləri belə olub

***Umumi məhsul buraxılışı. 2025-ci ildə iqtisadiyyatın əsas sahələrində ümumi məhsul buraxılışı 1 milyard 81 milyon 305,8 min manat təşkil etmiş və əvvəlki ilə nisbətən 26,1 faiz azalmışdır.***

Ümumi məhsul buraxılışının 1,5 faizi sənaye, 6,0 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 92,0 faizi tikinti, 0,2 faizi nəqliyyat və anbar təsərrüfatı, 0,3 faizi ticarət, nəqliyyat vasitələrinin təmiri, 0,0 faizi isə informasiya və rabitə sahələrinin payına düşmüşdür.

Məhsul buraxılışının həcmi 2024-cü ilə nisbətən sabit qiymətlərlə sənaye sahəsində 2,0 faiz, kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahəsində 6,9 faiz, tikinti sahəsində 27,4 faiz azalmış, nəqliyyat və anbar təsərrüfatı sahəsində 61,2 faiz, ticarət, nəqliyyat vasitələrinin təmiri sahəsində 55,8 faiz, informasiya və rabitə sahəsində isə 3,5 dəfə artmışdır.

2025-ci ildə məhsul və xidmətlərin 82 milyon 419,0 min manatı və ya 7,6 faizi iqtisadiyyatın qeyri-dövlət sektoruna aid olmuş və 2024-cü ilə nisbətən 5,8 faiz azalmışdır.

Sənaye. 2025-ci ildə sənaye müəssisələri, həmçinin sənaye fəaliyyəti ilə məşğul olan fərdi sahibkarlar və ev təsərrüfatları tərəfindən əvvəlki ilə nisbətən sabit qiymətlərlə 2,0 faiz az və ya 16 milyon 790,9 min manatlıq sənaye məhsulu istehsal edilmiş və sənaye xarakterli xidmətlər göstərilmişdir.

Kənd təsərrüfatı. 2025-ci ildə kənd təsərrüfatının ümumi məhsulunun dəyəri sabit qiymətlərlə əvvəlki ilə nisbətən 6,9 faiz az olaraq, 64 milyon 874,1 min manat təşkil etmişdir ki, bunun da 99,4 faizi heyvandarlıq məhsullarının, 0,6 faizi isə bitkiçilik məhsullarının payına düşür.

2025-ci ildə quş əti də daxil olmaqla diri çəkidə 6068,9 ton ət, 20723,5 ton süd, 280,8 ton yun və 4137,0 min ədəd yumurta istehsal olunmuşdur.



2024-cü ilə nisbətən ət istehsalı 6,4 faiz, süd istehsalı 8,8 faiz, yun istehsalı 7,1 faiz, yumurta istehsalı isə 5,3 faiz azalmışdır.

Tikinti. 2025-ci ildə bütün maliyyə mənbələrindən əsas kapitala 1 milyard 9 milyon 299,2 min manat məbləğində vəsait yönəldilmişdir.

Əsas kapitala yönəldilmiş vəsaitlərin 98,5 faizi bilavasitə tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə sərf olunmuşdur. Keçən ilə nisbətən faktiki qiymətlərlə əsas kapitala yönəldilmiş investisiyanın həcmi 26,7 faiz, tikinti-quraşdırma işlərinə yönəldilmiş vəsaitin həcmi isə 27,4 faiz azalmışdır.

Nəqliyyat. 2025-ci ildə nəqliyyat sektorunda sərnişin daşınmasından əldə olunan gəlir 1 milyon 168,4 min manat, yük daşınmasında isə 620,5 min manat təşkil etmişdir. Əvvəlki ilə nisbətən sərnişin daşınmasından əldə olunan gəlir 97,6 faiz, yük daşınmasında isə 3,4 faiz çox olmuşdur.

Ümumilikdə, 2025-ci ildə nəqliyyat və anbar təsərrüfatı sahəsində ümumi məhsul buraxılışının dəyəri sabit qiymətlərlə, əvvəlki ilə nisbətən 61,2 faiz artaraq 1 milyon 966,8 min manat təşkil etmişdir.

İnformasiya və rabitə. 2025-ci ildə informasiya və rabitə müəssisələri tərəfindən faktiki qiymətlərlə 17,1 min manatlıq xidmət göstərilmişdir. Əvvəlki ilə nisbətən informasiya və rabitə sahəsində ümumi məhsul buraxılışının dəyəri sabit qiymətlərlə, əvvəlki ilə nisbətən 3,5 dəfə çox olmuşdur.

Pərakəndə ticarət. 2025-ci ildə pərakəndə ticarətin dövriyyəsi 9 milyon 577,2 min manat və ya 2024-cü ilə nisbətən 155,8 faiz təşkil etmişdir.

Yeni iş yerləri. 2025-ci ildə rayon üzrə 183 yeni daimi iş yerləri açılmışdır ki, bu da əvvəlki ilə nisbətən 9,4 faiz az olmuşdur. Açılmış iş yerlərinin 85-i yeni yaradılmış müəssisə və təşkilatlarda, 98-i isə mövcud müəssisə və təşkilatlarda yaradılmışdır.

Açılmış iş yerlərinin 81-i və ya 44,3 faizi dövlət mülkiyyətində olan müəssisələrdə, 102-si və ya 55,7 faizi isə qeyri-dövlət mülkiyyətində olan müəssisələrdə yaradılmışdır.

2025-ci ildə 532 yeni fərdi sahibkarlıq subyektləri yaradılmışdır ki, bu da əvvəlki ilə nisbətən 3,7 faiz çox olmuşdur.

Əmək bazarı. 2025-ci il dekabr ayının 1-i vəziyyətinə rayonun iqtisadi və sosial sahələrində muzdla çalışan işçilərin sayı 5603 nəfər təşkil etmişdir ki, bu da əvvəlki ilin müvafiq dövrünə nisbətən 4,4 faiz az olmuşdur. Dövlət mülkiyyətində olan müəssisələrdə çalışan işçilərin sayı 5243 nəfər, qeyri-dövlət mülkiyyətində olan müəssisələrdə çalışan işçilərin sayı isə 360 nəfər olmuşdur.

2025-ci il dekabr ayının 1-i vəziyyətinə rayon iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı 2024-cü ilin müvafiq dövrünə nisbətən 13,4 faiz artaraq 736,2 manat təşkil etmişdir.

Əhali. İlkin hesablamalara görə 01 yanvar 2026-ci il tarixə rayon üzrə əhalinin sayı 72,7 min nəfər olmuşdur.

***Kəlbəcər Rayon Statistika İdarəsi***

# "Vətənə xidmət uşaqların gözündə" adlı tədbir keçirildi

***Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yaradılmasının 14-cü ildönümü ərəfəsində "Lily Art Center" uşaq incəsənət mərkəzinin təşkilatçılığı ilə tədbir keçirilib.***

"Unikal" xəbər verir ki, "Vətənə xidmət uşaqların gözündə" adlı tədbirdə məktəblilərin vətənpərvərlik, vətənə bağlılıq və hərbi xidmət mövzusunda çəkdikləri rəsm əsərləri nümayiş olunub.

Tədbirdə mərkəzin rəhbəri Aydan Abdullazadə, Azərbaycan Rəssamlar İttifaqının sədr müavini, xalq rəssamı, professor, əməkdar incəsənət xadimi Ağaəli İbrahimov, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Çağırışaqədərki hazırlıq idarəsinin rəisi polkov-




nik-leytenant Füzuli İsmayılov, İctimaiyyətlə iş və beynəlxalq əlaqələr şöbəsinin rəisi Pərviz Sədrəddinov, şəhid ailələri, müəllimlər, valideynlər və digər qonaqlar iştirak ediblər.

Tədbirdə çıxış edən Dövlət Xidməti aparatının idarə rəisi polkovnik-leytenant Füzuli İsmayılov uşaqlarda vətənpərvərlik hissi, qalib ölkənin vətəndaşı olmaq, sağlam həyat tərzi, ölkənin inkişafı, regionun lider dövləti olan Azərbaycanın nüfuzu barədə danışdı. Xalq rəssamı Ağaəli İbrahimov isə balaca rəssamlara öz məsləhət və tövsiyələrini verdi, həmçinin Xidməti 14-cü ildönümü münasibətilə təbrik edib.

Tədbirdə gənc rəssamların təbrik videosu nümayiş olunub. Həmçinin şəhid övladlarından ibarət xorun və mərkəzin digər üzvlərinin ifasında müxtəlif mahnılar səsləndirilib. Rəsmi hissə bitdikdən sonra foyedə təşkil olunan kiçik sərgidə uşaqların rəsm əsrləri nümayiş olunub.

06_27 IYUl-QARA.qxd 2/12/2026 10:39 PM Page 14



# 2025-ci ildə Astaranın iqtisadi və sosial inkişafının makroiqtisadi göstəriciləri




***2025-ci ildə Astara rayonunda iqtisadiyyatın əsas sahələri üzrə məhsul buraxılışı və xidmətlərin həcmi əvvəlki ilə nisbətən 3,0 faiz azalaraq 278367,4 min manat olmuşdur. İstehsal edilmiş məhsul və xidmətlərin rayon əhalisinin hər nəfərinə düşən dəyəri 2459,4 manat təşkil etmişdir.***

Məhsul və xidmətlərin 53,2 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 32,5 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 0,5 faizi tikinti, 10,2 faizi sənaye, 3,3 faizi nəqliyyat və anbar təsərrüfatı, 0,3 faizi informasiya və rabitə sahələrində istehsal edilmişdir.

Sənaye müəssisələri və bu sahədə fəaliyyət göstərən fərdi sahibkarlar tərəfindən 2025-ci ildə 28363,1 min manatlıq və ya əvvəlki illə müqayisədə 52,7 faiz az sənaye məhsulu istehsal edilmişdir.

Sənaye məhsulunun 40,5 faizi emal sektorunda, 56,8 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sektorunda, 2,7 faizi isə su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorunda istehsal olunmuşdur. Sənayedə qeyri-dövlət sektorunun payı 40,5 faiz olmuşdur.

Emal sənayesində istehsalın həcmi 7,6 faiz, elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sektorunda istehsalın həcmi 54,3 faiz azalmış, su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorunda isə 1,5 faiz artmışdır.

Kənd təsərrüfatı bitkilərinin yığımı başa çatmışdır. 2025-ci ildə qarğıdalı da daxil olmaqla taxıllardan 2896,5 ton və ya 2024-cü ilə nisbətən 1,3 faiz az dənli və dənli paxlalı bitkilər, 7313,7 ton (2,4 faiz az) kartof, 27080,2 ton (3,0 faiz az) tərəvəz, 3735,2 ton (6,3 faiz az) bostan məhsulları, 79884,0 ton (13,9 faiz çox) meyvə və giləmeyvə, 23,5 ton (0,8 faiz az) üzüm, 724,6 ton (8,7 faiz çox) yaşıl çay yarpağı yığılmışdır.

2025-ci ildə diri çəkidə 4105,0 ton ət, 25598,7 ton süd, 11682 min ədəd yumurta, 27,0 ton yun, 83,2 kq barama istehsal olunmuşdur. 2024-cü illə müqayisədə ət istehsalı 0,7 faiz, yumurta istehsalı 0,1 faiz artmış, yun istehsalı eyni səviyyədə qalmış, süd istehsalı 1,4 faiz, barama istehsalı isə 54,9 faiz azalmışdır.

2024-cü illə müqayisədə kənd təsərrüfatının ümumi məhsulu 5,7 faiz, o cümlədən heyvandarlıq məhsulları istehsalı 1,8 faiz, bitkiçilik məhsulları istehsalı isə 9,2 faiz artmışdır.

2025-ci ildə əsas kapitala 147778,8 min manat məbləğində, yaxud 2024-cü illə müqayisədə 3,2 dəfə çox vəsait yönəldilmişdir. Əsas kapitala yönəldilmiş vəsaitlərin 145768,1 min manatı və ya 98,6 faizi bilavasitə tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə sərf olunmuşdur.

Nəqliyyat sektorunda fəaliyyət göstərən müəssisələr və fiziki şəxslər tərəfindən 2025-ci ildə 1279,0 min ton yük və 8197,0 min sərnişin daşınmışdır. 2024-cü illə müqayisədə yük daşınması 5,7 faiz, sərnişin daşınması isə 5,5 faiz artmışdır.

İnformasiya və rabitə müəssisələri tərəfindən göstərilmiş 727,1 min manatlıq xidmətlərin 79,5 faizi əhali sektoruna aid olmuşdur. 2025-ci ildə göstərilmiş informasiya və rabitə xidmətlərinin həcmi 2024-cü illə müqayisədə 18,7 faiz azalmış, bu sahədə əldə edilmiş gəlirin 91,7 faizi dövlət sektorunun payına düşmüşdür.

2025-ci ildə pərakəndə ticarət şəbəkəsindən əhaliyə 282616,3 min manatlıq məhsul satılmış, xidmət subyektləri tərəfindən 48070,8 min manatlıq ödənişli xidmət göstərilmişdir.

2024-cü illə müqayisədə əmtəə dövriyyəsi 0,3 faiz, əhaliyə göstərilmiş ödənişli xidmətlərdən əldə olunan gəlir 6,0 faiz artmış, ticarət şəbəkəsində 161399,7 min manatlıq ərzaq məhsulları, içkilər və tütün məmulatları, 121216,6 min manatlıq qeyri-ərzaq malları satılmışdır.

2025-ci ildə istehlak qiymətləri indeksi 2024-cü illə müqayisədə 105,8 faiz, o cümlədən qida məhsulları, içkilər və tütün məmulatları üzrə 107,5 faiz, qeyri-qida malları üzrə 101,4 faiz, əhaliyə göstərilən ödənişli xidmətlər üzrə 107,6 faiz təşkil etmişdir.

2025-ci ilin yanvar-noyabr aylarında muzdlu işçilərin orta aylıq nominal əməkhaqqı 2024-cü ilin müvafiq dövrünə nisbətən 12,9 faiz artaraq 713,4 manata çatmışdır.

İlkin hesablamalara əsasən 2025-ci ilin yanvar-dekabr aylarında əhalinin sayı 738 nəfər və ya 0,7 faiz artaraq 2026-cı il yanvar ayının 1-i vəziyyətinə 113553 nəfərə çatmışdır.

| Göstəricinin adı | 2025-ci ildə, faktiki | 2025-ci il 2024-cü ilə nisbətən, faizlə | Məlumat üçün 2024-cü il 2023-cü ilə nisbətən, faizlə |
|---|---|---|---|
| A | 1 | 2 | 3 |
| **Ümumi məhsul və xidmətlər, min manat** | **278367,4** | 97,0 | 105,3 |
| Əhalinin hər nəfərinə düşən həcmi, manat | 2459,4 | 106,9 | 108,0 |
| **Sənaye məhsulu, min manat** | **28363,1** | **47,3** | **80,9** |
| **Əsas kapitala yönəldilmiş vəsaitlər, min manat** | **147778,8** | 3,2 dəfə | 174,7 |
| o cümlədən: tikinti-quraşdırma işlərinə | 145768,1 | **3,2 dəfə** | **176,6** |
| **Kənd təsərrüfatı məhsulu, min manat** | **148095,2** | **105,7** | **102,2** |
| o cümlədən: bitkiçilik | 82336,5 | 109,2 | 103,9 |
| heyvandarlıq | 65758,7 | 101,8 | 100,3 |
| **Nəqliyyat sektorunda yük daşınması, min ton** | **1 279,0** | **105,7** | **105,9** |
| **Nəqliyyat sektorunda sərnişin daşınması, min sərnişin** | **8197,0** | **105,5** | **107,5** |
| **İnformasiya və rabitə xidmətləri, min manat** | **727,1** | **81,3** | **68,0** |
| **Pərakəndə ticarət dövriyyəsi, min manat** | **282616,3** | **100,3** | **101,3** |
| **Əhaliyə göstərilən ödənişli xidmətlər, min manat** | **48070,8** | **106,0** | **106,5** |
| **Orta aylıq nominal əməkhaqqı, manat** | **713,4*** | **112,9**** | **107,4***** |
| **Yeni iş yerləri, vahid** | **166** | **135,0** | **100,0** |
| **İstehlak qiymətlərinin indeksi** | **x** | **105,8** | **104,7** |
| **Əhalinin sayı, 2026-cı il 01 yanvar vəziyyətinə, nəfər** | **113553** | **100,7** | **100,6** |

**Astara Rayon Statistika İdarəsi**



# ADY vətəndaşlara müraciət etdi

***"Azərbaycan Dəmir Yolları" QSC (ADY) təhlükəsizliklə bağlı vətəndaşlara müraciət edib.***

ADY-dən "Unikal"a verilən məlumata görə, 30 ildən artıq dəmir yollarında çalışan maşinist Xoşbəxt Hüseynov işinin məsuliyyətindən və qarşılaşdığı risklərdən danışıb.

ADY maşinistindən vacib çağırış: dəmir yollarında təhlükəsizlik hər kəsin məsuliyyətidir. Məlumata görə, hərəkət zamanı insanların qəfil yola çıxması və təcili tormozlama qatar heyəti və sərnişinlərdə qorxu, stres və həyəcan yaradır.

"Təhlükəsizlik qaydalarının pozulması həm də insanlar və qatarlara ciddi ziyan dəyməsi ilə nəticələnir", - məlumatda qeyd olunur.

# Anası tərəfindən imtina edilən körpənin son durumu




***Gəncədə anası tərəfindən imtina edilən körpənin vəziyyəti ilə bağlı TƏBİB məlumat yayıb.***

TƏBİB-dən "Unikal"a bidirilib ki, 10.02.2026-cı il tarixində saat 12:35 radələrində 2025-ci il təvəllüdlü azyaşlı (qadın) Gəncə Şəhər Birləşmiş Xəstəxanasının nəzdində olan Uşaq Xəstəxanasının Pediatriya şöbəsinə hospitalizasiya olunub.

Ona yuxarı tənəffüs yollarının dəqiqləşdirilməmiş kəskin infeksiyası diaqnozu təyin olunub. Hazırda körpənin müalicəsi xəstəxananın müvafiq şöbəsində davam etdirilir, vəziyyəti stabildir.

Qeyd edək ki, anası tərəfindən imtina edilən körpənin iki aylıq olduğu bildirilir. Körpə qız uşağıdır. Məlumata görə, körpənin anası uşağını körpələr evinə verilməsini istəyib. Hazırda adiyyatı qrumlar tərəfindən araşdırmalar aparılır.

*Tural Əhmədov*

# Siyəzəndə muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı artıb

***Siyəzən rayonunda 2025-ci ilin yanvar-noyabr aylarında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı 809,2 manat, o cümlədən dövlət sektorunda 895,2 manat, qeyri-dövlət sektorunda 708,6 manat təşkil etmiş, 2024-cü ilin müvafiq dövrünə nisbətən rayon üzrə 9,0 faiz, dövlət sektoru üzrə 3,4 faiz, qeyri-dövlət sektoru üzrə 19,0 faiz artmışdır.***

İqtisadiyyatın ayrı-ayrı sahələrində işləyənlərin orta aylıq əməkhaqqı rayon göstəricisindən çox olmuş, belə ki, mədənçıxarma sənayesi bölməsində 1721,2 manat, elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı bölməsində 940,4 manat, maliyyə və sığorta sahəsində 1874,8 manat, dövlət idarəetməsi və müdafiə; sosial təminat sahəsində 947,2 manat, nəqliyyat və anbar təsərrüfatı sahəsində 1076,7 manat, digər sahələrdə xidmətlərin göstərilməsi sahəsində 912,5 manat təşkil etmişdir.

*Kamil Xəlilov,*
*Siyəzən Rayon Statistika İdarəsinin rəisi*

06_27 IYUI-QARA.qxd 2/12/2026 10:39 PM Page 15





## Kallas Ukraynadakı seçkilərə qarşı çıxdı

***Aİ-nin xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Kaya Kallas Rusiya ilə münaqişə fonunda Ukraynada seçkilərin keçirilməsini pis qərar hesab edib.***

"Unikal" xarici KİV-ə istinadən xəbər verir ki, onun sözlərinə görə, əksər Avropa ölkələrinin konstitusiyaları hərbi əməliyyatlar zamanı seçkilərin keçirilməsini qadağan edir. Çünki seçkilər bir ölkə daxilində müxtəlif siyasi qüvvələr arasında gedən mübarizədir.

"Xarici hücumlar davam etdikdə, seçkilər keçirmək mümkün deyil, çünki düşmən çöldədir və bütün səylər ona qarşı mübarizəyə yönəldilməlidir. Buna görə də, mənim fikrimcə, müharibə zamanı seçkilərin keçirilməsi qətiyyən yaxşı həll yolu deyil", - deyə o əlavə edib.

Ötən gün "Financial Times" qəzeti mənbələrə istinadən Zelenskinin 24 fevralda prezident seçkiləri və Rusiya ilə sülh müqaviləsi üzrə referendum elan etməyi planlaşdırdığını bildirib.

***Gülayə Mecid***

## ABŞ Yaxın Şərqə daha bir gəmi göndərir



***ABŞ-nin İrana qarşı Yaxın Şərqə ikinci aviadaşıyıcı zərbə qrupu göndərməyi nəzərdən keçirdiyi bildirilib.***

"Unikal" "Wall Street Journal"a istinadən xəbər verir ki, Pentaqon bununla bağlı planlama göstərişi alıb.

Qeyd olunur ki, qərar qəbul edilərsə, "USS George H.W. Bush" aviadaşıyıcısı iki həftə ərzində bölgəyə göndərilməsi nəzərdə tutulub.

Xatırladaq ki, bundan əvvəl ABŞ Mərkəzi Komandanlığı (CENTCOM) "USS Abraham Linkoln" (CVN 72) təyyarədaşıyan gəmisini Yaxın Şərqə göndərmişdi.

***Ayxanım Məlikova***

## Alman siyasətçilər Tramp və Vensin yoxluğuna sevindilər

***Münhen Təhlükəsizlik Konfransında iştirak edən siyasətçilər ABŞ prezidenti Donald Tramp və ABŞ vitse-prezidenti J.D. Vensin bu ilki tədbirdə iştirak etməyəcəyini öyrəndikdən sonra rahatlayıblar.***

"Unikal" xəbər verir ki, bu barədə "Financial Times" qəzeti məlumat yayıb.

Nəşr yazır ki, "Bavariya paytaxtında keçirilən konfransda iştirak edən siyasətçilər ABŞ-nin gələcək düşmənçilik nümayişlərinə hazırlaşırlar, baxmayaraq ki, Trampın və ABŞ vitse-prezidenti J.D. Vensin bu ilki tədbirdə iştirak etməməsi əsəbləri sakitləşdirib".

# Suriya prezidentinə 5 sui-qəsd cəhdi olub - BMT

***Ötən il Suriya prezidenti Əhməd Əl Şaraa, Suriyanın daxili işlər naziri Ənəs Xəttab və Suriyanın xarici işlər naziri Əsəd Həsən Şeybaniyə qarşı beş sui-qəsd cəhdin qarşısı alınıb.***

"Unikal" xəbər verir ki, bu barədə məlumat BMT-nin hesabatında yer alıb.



Belə ki, qurumun Terrorla Mübarizə İdarəsi tərəfindən hazırlanan hesabatda bildirilir ki, Suriya prezidenti Şaraa, daxili işlər naziri və xarici işlər naziri ötən il beş sui-qəsd cəhdinin hədəfinə çevrilib, lakin bunların hamısının qarşısı alınıb.

Şaraanın Hələbin şimalında və Dəraanın cənubunda "hədəfə alındığı" bildirilən hesabatda bu hücumların İŞİD terror qruplaşmasının ön cəbhəsi hesab edilən Ənsar əl-Sünnə tərəfindən həyata keçirildiyi bildirilir.

Hesabatda sui-qəsd cəhdləri ilə bağlı tarixlər və ya təfərrüatlar verilməsə də, Şaraanın İŞİD-in "əsas hədəfi" hesab edildiyi və bu cəhdlərin onların Suriya hökumətini zəiflətmək niyyətinin sübutu olduğu vurğulanıb.

***Gülayə Mecid***

# Zelenski nə üçün Moskvada görüşdən imtina edir?

***Ukrayna Prezidenti Volodimir Zelenski Rusiya lideri Vladimir Putinlə Avropada və ya ABŞ-də görüşməyə hazır olduğunu bildirib.***

"Unikal" xarici KİV-ə istinadən xəbər verir ki, o, bu barədə yerli jurnalistlərə açıqlamasında deyib.

Zelenksi, həmçinin Putinlə Rusiya və ya Belarusda görüşməkdən imtina etməsinin səbəbini də açıqlayıb: "Rusiya tərəfinin məni



bir neçə dəfə açıq şəkildə dəvət etdiyini eşitmişəm, baxmayaraq ki, düşünürəm ki, onlar məni şəxsən dəvət ediblər. Mən də buna cavab verdim. Biz ölkəmizi müdafiə edirik və Rusiya bizə hücum etdi. Və onlar təcavüzkardır. Mən təcavüzkar ölkənin paytaxtı Moskvaya Putinlə danışıqlar üçün gedə bilmərəm", - deyə Zelenski bildirib.

***Gülayə Mecid***

# "Bayrağımızı yerə atılmış halda gördüm" - Paşinyan

***"Bayrağı aparıb bir yerə sancırıq, deyirik ki, yaxşı iş gördük. Sonra o bayraq köhnələncə və ya cırılanda heç kimin vecinə olmur".***

"Unikal" xəbər verir ki, bunu Ermənistanın baş naziri Nikol Paşinyan hökumətin iclasında deyib.

"Dövlət idarəçiliyi orqanında bayrağımızı yerə atılmış halda gördüm və bununla bağlı çox sərt qərarlar verdim. Məlum oldu ki, həmin qərarla bağlı fikir o qədər də birmənalı deyil"

İndi dövlət bayrağı ilə bağlı davranış qaydalarını pozduğuna görə İnzibati Xətalar Məcəlləsinə artıq dəyişikliklər edilib", - deyə qeyd edib.

***Ağarza Elçinoğlu***



# "Əvvəlcə ataşkəs, sonra isə seçkilər" - Zelenski

***"Ukraynada prezident seçkilərinə yalnız atəşkəs elan edildikdə və hərtərəfli təhlükəsizlik zəmanətləri təmin edildikdə başlamaq olar".***

"Unikal" xəbər verir ki, bunu Ukrayna Prezidenti Volodimir Zelenski sosial media hesabında yazıb.

O, paylaşımında seçki cədvəlinin 24 fevralda, Rusiyanın işğal cəhdinin ildönümündə açıqlanacağı ilə bağlı iddiaları da təkzib edib.

Ukrayna lideri, bu tarixin simvolik əhəmiyyətini vurğulayaraq bildirib ki, "Seçkiləri irəli aparmaq üçün bir niyyət və ya addım olsa belə, belə bir gündən siyasi hesablamalar üçün istifadə etmək məntiqli olmazdı. 24 fevral heç bir seçki elanı üçün istifadə edilə bilməz".

Zelenski seçki məsələsinin bəzi beynəlxalq tərəfdaşlar tərəfindən qaldırıldığını bildirib və Ukraynanın bu mövzunu özü başlatmadığını vurğulayıb.

***Gülayə Mecid***

# Qırğızıstan Parlamentinin sədri istefa verdi

***Qırğızıstan Parlamentinin sədri Nurlanbek Turgunbek Ulu istefa ərizəsi yazıb.***

"Unikal" xəbər verir ki, bu barədə Qırğızıstan mətbuatı məlumat yayıb.

O, ölkədə baş verən siyasi hadisələr fonunda bu addımı atdığını deyib: "Bir və ya iki şəxsə xidmət etmədiyimi deməyi zəruri hesab edirəm. Mən xalqa, dövlətə və parlamentə xidmət edirəm.



Könüllü istefa vermək qərarına gəlmişəm. Bu, mənim şəxsi qərarımdır və xarici təzyiq olmadan qəbul edilib".

Spikerin istefası məsələsi Qırğızıstan Milli Təhlükəsizlik Dövlət Komitəsinin rəhbəri Kamçibek Taşiyevin vəzifəsindən azad edilməsindən sonra müzakirə olunurdu.

Bundan əvvəl prezident Sadır Japarov Qırğızıstan Milli Təhlükəsizlik Dövlət Komitəsinin rəhbəri Kamçibek Taşiyevi və onun üç müavinini vəzifəsindən azad etmişdi.

***Ağarza Elçinoğlu***

06_27 IYUl-QARA.qxd 2/12/2026 10:39 PM Page 16



# NBA oyununda insident



***ABŞ Milli Basketbol Assosiasiyasında (NBA) "Şarlot Hornets" - "Detroyt Pistons" oyununda baş verən insidentə görə 4 oyunçuya cəza verilib.***

"Unikal" xarici mətbuata istinadən xəbər verir ki, davada iştirak edən Ayzeya Stüart 7, Maylz Briks və Mussa Diabate hərəyə 4, Ceylen Düren isə 2 oyunluq diskvalifikasiya olunublar. Hadisə matçın üçüncü hissəsində Ceylen Dürenlə Mussa Diabate arasında yaranan gərginlikdən sonra başlayıb və digər oyunçuların müdaxiləsi ilə böyüyüb. Nəticədə adıçəkilən oyunçular meydandan kənarlaşdırılıblar. Oyunun son hissəsində hakimə etiraz edən "Şarlott Hornets"in baş məşqçisi Çarlz Li də texniki zonadan qovulub.

Qeyd edək ki, görüş qonaqların 110:104 hesablı qələbəsi ilə başa çatıb.

# Şahmat üzrə Azərbaycan çempionatında 1/8 finalın ilk partiyaları keçirilib

***Şahmat üzrə Azərbaycan çempionatında 1/8 final mərhələsinin ilk partiyaları keçirilib.***



Şahmat Federasiyasından bildirilib ki, turnirin reytinq favoriti Şəhriyar Məmməyarov Murad İbrahimli ilə, ötən ilki çempion Rauf Məmmədov isə Şiroğlan Talıbovla heç-heçə oynayıb. Eltac Səfərli Kamal Ağasiyevi, Aydın Süleymanlı Rəhim Qasımovu, Məhəmməd Muradlı Rəvan Əliyevi, Read Səmədov Paşam Əlizadəni, Əhməd Əhmədzadə isə Vüqar Rəsulovu məğlub edib. Nicat Abasov ilk partiyada Xaqan Əhmədə uduzub.

Qadın şahmatçıların yarışında bütün oyunlar məhsuldar alınıb. Ötən ilin çempionu Günay Məmmədzadə Nərmin Kazımovanı, Avropa çempionu Ülviyyə Fətəliyeva isə Zəhra Allahverdini məğlub edib. Digər görüşlərdə Gövhər Beydullayeva, Xanım Balacayeva, Gülnar Məmmədova, Türkan Məmmədyarova, Ayan Allahverdiyeva və Səbinə İbrahimova qələbə qazanıb.

Ötən gün 1/8 finalın cavab partiyaları oynanılıb. Azərbaycan çempionatında yarışlar hər gün saat 15:00-da başlayır.

# "Turan Tovuz" Berdıyev üçün apellyasiya şikayəti edəcək

***"Turan Tovuz" baş məşqçisi Kurban Berdıyevin 4 oyunluq cəzalandırılması ilə bağlı AFFA-nın Apellyasiya Arbitraj Tribunalına şikayət edəcək.***

Bu barədə QOL.az saytına açıqlamasında klubun mətbuat xidmətinin rəhbəri Süleyman Tağıyev danışıb.

Ötən gün AFFA İntizam Komitəsinin iclası keçirilmiş və mütəxəssisə 4 matçlıq cəza təyin edilmişdi. Buna səbəb Azərbaycan kubokunun 1/4 final mərhələsinin ilk oyunları çərçivəsində "Kəpəz"ə qarşı görüşdə etdiyi hərəkətlər olub. K.Berdıyevə hakimi itələdiyinə görə birbaşa qırmızı vərəqə aldıqdan sonra hakimləri təhqir etdiyi üçün belə bir cəza verilib.



"Turan Tovuz" rəsmisi isə qərarla razılaşmadıqlarını və apellyasiya şikayəti edəcəklərini söyəyib: "Bu qərardan apellyasiya şikayəti verəcəyik. Etirazımız sırf baş məşqçinin cəzalanlandırılması ilə bağlıdır. Dörd oyunluq cəza ilə razı deyilik".

Qeyd edək ki, K.Berdıyev 2024-cü ildən bölgə təmsilçisini çalışdırır.



# "Liverpul" minimal hesabla qələbə qazandı

***İngiltərə Premyer Liqasının 26-cı turunda növbəti oyun keçirilib.***

"Unikal" xəbər verir ki, "Liverpul" səfərdə "Sanderlend"lə qarşılaşıb və minimal hesabla (1:0) qalib gəlib. Oyunun yeganə qolunu 61-ci dəqiqədə Vircil van Deyk vurub.

Bu qələbə ilə "Liverpul" 42 xal qazanaraq turnir cədvəlində altıncı yerə yüksəlib. 36 xalla "Sanderlend" isə 11-ci yerdədir.

# "Bavariya" yarımfinala yüksəldi

***Almaniya Kubokunda "Bavariya" "RB Leypsiq"i məğlub edərək Almaniya Kubokunun yarımfinalına yüksəlib.***

"Unikal" xəbər verir ki, "Arena Munich"də keçirilən dörddəbir final matçında Münhen klubu 2:0 hesabı ilə qalib gəlib.

# Messi "Barselona" ilə oyunda zədələndi



***ABŞ-nin "İnter Mayami" komandasının futbolçusu Lionel Messi zədələnib.***

"Unikal" klubun rəsmi saytına istinadla xəbər verir ki, argentinalı hücumçu Ekvadorun "Barselona" kollektivi ilə yoldaşlıq matçında bud əzələsindən xəsarət alıb. 39 yaşlı forvarda əzələ dartılması diaqnozu qoyulub.

Ulduz futbolçunun məşqlərə başlayacağı tarix hələlik bəlli deyil. Hər şey bərpa prosesindən asılı olacaq.

Qeyd edək ki, Lionel Messi 2023-cü ilin iyun ayından "İnter Mayami"də çıxış edir.

# "Nottinqem Forest"in baş məşqçisi klubdan ayrıldı

***"Fənərbağça"nın UEFA Avropa Liqasının pley-off mərhələsindəki rəqibi "Nottinqem Forest"də ayrılıq yaşanıb.***

"Unikal" xəbər verir ki, Premyer Liqa təmsilçisinin baş məşqçisi Şoun Dayç komandanı tərk edib.

Qeyd edək ki, Şoun Dayç ötən ilin oktyabr ayında komandanın baş məşqçi vəzifəsinə gətirilmişdi.

# Tomas Tuxel İngiltərə millisi ilə müqaviləsini yeniləyəcək

***İngiltərə Futbol Assosiasiyası milli komandanın baş məşqçisi Tomas Tuxellə yeni müqavilə imzalayacaq.***



"Unikal" xarici KİV-ə istinadən xəbər verir ki, sözləşmənin müddəti 2028-ci ilun yayına qədər uzadılacaq.

Rəsmi açıqlamanın bu gün veriləcəyi gözlənilir.

Qeyd edək ki, 2025-ci il yanvarın 1-də İngiltərə yığmasının sükanı arxasına keçən Tomas Tuxelin hazırkı müqaviləsi 2026-cı il dünya çempionatından sonra başa çatmalı idi. Almaniyalı mütəxəssis Ruben Amorimin istefaya göndərilməsindən sonra "Mançester Yunayted"in baş məşqçisi postuna əsas namizədlərdən biri hesab olunurdu.